# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."



*Qəzet 1932-ci ildən çıxır* № 13-14 (6775-6776) 29 dekabr 2016-cı il Cəbrayıl RİH-nin orqanı


# 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür

# *Yeni iliniz mübarək!*



# Dünya azərbaycanlılarına

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi - Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 dekabr 2016-cı il**

# Cəbrayıllıların

## *Yeni il şənliyi*



Dekabrın 29-da "Cəbrayıl" şadlıq evində 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları ilə əlaqədar bayram tədbiri keçirildi.

Rayon İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, YAP fəalları, hüquq-mühafizə orqanları, idarə və müəssisə rəhbərləri, ərazi nümayəndələri, məktəb direktorları, ictimaiyyət nümayəndələri, ağsaqqallar və ziyalılar iştirak edən tədbiri Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva açdı. Rayon əhalisini və yığıncaq iştirakçılarını xalqımızın birlik və mütəşəkkillik, milli təəssübkeşlik və vətənə sədaqətlilik rəmzi olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibəti ilə təbrik etdi. Bildirdi ki, Ümummilli Liderimiz Heydər Əliyev 1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi dövrdə dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdir. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan Azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilən bu bayram hər il ölkə prezidentimiz İlham Əliyev cənablarının daim diqqət mərkəzində olub, respublikamızda böyük ruh yüksəkliyi ilə qeyd edilir.



Tədbirin bədii hissəsi rayon Mədəniyyət və Turizm şöbəsinin hazırladığı konsert proqramı ilə davam etdirildi. Şöbənin musiqi kollektivinin üzvləri Sədaqət Ağayev, Fatma Əhmədova, Zəminə Hüseynova, Allahverdi Məmmədov, Oqtay Əliyev, Məhəmməd Abdullayev, Namiq Vəliyev, Ədalət Nəbiyev bir-birindən gözəl mahnılar ifa etdilər.



***"Xudafərin"***

# ANONS!

**"Xudafərin" qəzetinin 85 illik yubileyi qarşısında**

***Sirac Rüstəmov - 85***




**Əməl dəftərimiz vərəqləndikcə...**

*Bax: səh-4*

# Lələ təpəsi - Cəbrayıla açılan qapı





Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə noyabrın 17-də Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Cəbrayıl rayonunun işğaldan azad edilmiş yeganə yaşayış məntəqəsində - Cocuq Mərcanlı kəndində olub.

Kənddəki vəziyyətlə tanış olan Əli Həsənov burada yaşayan yeganə ailəyə baş çəkib. 23 ildir ki, Cocuq Mərcanlı kəndində yaşayan yeddi nəfərdən ibarət Həziyevlər ailəsinin güzəranı ilə maraqlanıb.









Axırda Oktay Həziyevin ailəsinə mövcud imkanlar çərçivəsində müvafiq yardım olunub.

***

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun tövsiyəsi ilə Cocuq Mərcanlı kəndinə gedib təəssüratlarımı yazmağa qərar verdim. RİH-nin Cocuq Mərcanlı kəndi üzrə nümayəndəsi Xanlar Əvəz oğlu Zeynalovla əlaqə saxladıq. Səfərimizi eşidən İƏD üzrə nümayəndənin müavini olmuş və hazırda təqaüddə olan Məhəmməd Misirov da bizimlə getməyi özünə fürsət bildi. Dekabrın 24-də vədələşib görüşdük. Mən Xanlar müəllimin maşınına yaxınlaşanda yanında əyləşmiş qadını gördüm, özlüyümdə belə qənir götürdüm ki, bu, onun həyat yoldaşıdır. Zənnimdə yanılmamışdım. Rayonumuzun Araz Maşanlı kəndindən olan Nübar Fətəliyeva idi. O da Xanlar müəllimi tək buraxmaq istəməmiş, həm də Cocuq Mərcanlının təxminən 1,5 km-liyində yerləşən Füzuli rayonunun Qazaxlar kəndinə hələ düzün düz vaxtları - əmin-amanlıq illərində gəlin köçmüş bacısı Həmayılgilə də gedib baş çəkməyi qənimət saymışdı.

Beləcə, Bakıdan üzü Vətənə sarı yola düşdük. Hər birimizin ürəyində min cür fikir-xəyal yolboyu söhbətləşə-söhbətləşə uzaq yolu yaxın elədik. Təxminən 300 km-lik bir yol qət etdik. Maşının spidometrini qurmuşdu Xanlar müəllim. Bakıdan bir az aralaşmışdıq ki, mən adətim üzrə ürəyimə əvvəlcədən daman intuitiv duyğunu dolayısı ilə dilimə gətirirb, zarafatla dedim ki, üzü qaranlığa düşəcəyik və spidometrin km. göstəricisi 300-ə çatanda mən maşını saxladıb düşəcəyəm, ondan 1 metr də qabağa getməyəcəyəm. Çünki ”gecə qara, cücə qara” - tanımaza, bilməzə ermənilərin postuna gedib ”ilişə” bilərik. Əlbəttə, bu həm də bir gülüş ovqatı doğurmaq, xoş əhval-ruhiyyə ilə yol getmək üçün səmimi şux zarafat idi. Amma əslində mən gedəcəyimiz yolun 300km-lik bir məsafə olacağını bəri başdan bu zarafatımın arasında bir mesaj kimi vermək istəyirdim. Axı sözü həm də zarafata deyərlər. Nə isə...

Gecənin payız vədəsinin qaranlığı tez çökdüyündən və mənzil başına yaxınlaşdığımızdan, maşının məsafəölçən cihazındakı rəqəm də 280-i keçmişdi. Mən də arabir rəqəmə işarə ilə deyirdim ki, bax ha, Xanlar müəllim, artıq 300-ü döyməyə az qalıb, işini bil. Tez ol çataq. Yoxsa getməyəcəyəm. Gecənin bu qaranlığında nə bilək ki, hara gedirik?

Horadiz qəsəbəsini, Əhmədalılar kəndini ötüb keçdik, Qazaxlar kəndinə çatdıq. Kəndin aralığı ilə gedərkən qulağımıza toy səsi gəldi. Kənddə toy məclisi var idi. Təbiətən nikbin olan xalqımızın övladları düşmən həmləsindən qorxub-çəkinmədən şənlik edirdilər. Heç elə biləsən ki, burdan 2-3 km. o yanda mənfur düşmənlərimiz səngər qurub marığa yatmayıblar. Elə bu xoş auranın ağuşunda bir də onu gördüm ki, Xanlar müəllim maşını sürdü bacanağı Mahmudoğlu Abbas kişinin həyətinə. Allah, bu qonaqpərvərlik, bu mehriban qonaqqarşılama məni 23 il qabaqkı yaşayışımıza aparıb çıxartdı. Qonaq-qarası əskik olmayan evlərimiz, kənd-kəsəkli bəxtəvər günlərimiz elə bil ki, təzədən ”dirilib gəldi” gözlərimin önünə. Abbas dayı, həyat yoldaşı Həmayıl xala necə istiqanlılıqla bizi qarşıladılar. İçəri girəndən sonra bu sonsuz səmimiyyəti görüb, adətim üzrə isinmək üçün kənd peçinin yanını kəsdirib durdum, dizlərimin altına döşəkcə atıb çöməltmə oturub isti sobanı ”qucaqladım” - soyuqdan özümə gələndən sonra qalxıb zəngin bəzədilmiş süfrə masasında özümə yer elədim.

Handan-hana spidometrin göstəricisinin neçədə dayandığını soruşmaq yadıma düşdü. 296 km. deyəndə, bildirdim ki, mənə elə məhz təxminən bu qədər yol gələcəyimiz əvvəlcədən əyan olmuşdu deyən sizinlə belə zarafat edirdim.

Ev yiyəsi Abbas dayı 8 ay öncəki aprel döyüşlərini də xatırlatdı. Yerin-göyün lərzəyə gəlməsindən, atışmadan qulaq tutulmasından danışdı. Dedi ki, mən arvadı götürüb maşınla bir qədər aralıdakı kəndə apardım, istədim ki, o, bir müddət - aralar səngiyənə kimi orada qalsın. Qayıdıb maşına oturanda gördüm o məndən qabaq maşındadı. Dedi ki, mən səni tək buraxa bilmərəm, sən harda, mən də orda olacam. Beləcə, o ağır atışmalar zamanı biz bu evimizi tərk etmədik, birlikdə olduq.

Tomris hünərli, Hecər, Nigar qeyrətli Azərbaycan qadınları demək bu gün də yaşayır, - dedim. Ürəyimdən isə bu fikirləri keçirdim ki, Həmayıl xanım cəbhəyanı kənddə odun-alovun içərisində həyat yoldaşı Abbas İsmayılovla bir damın-daşın altında yaşayıb, onu tək qoymadığı kimi, onun bacısı Nübar xanım da heç ondan geri qalmayıb, həyat yoldaşı Xanlar müəllimi cəbhəboyu kəndlərə, o cümlədən də çoxlarının ehtiyat edib getmədiyi dağıdılıb viran edilmiş Cocuq Mərcanlı kəndinə tək buraxmaq istəməyib. Bakı şəhərindən 300 km-lik yolu bizimlə gəlib. Abbas kişinin bizdən Cocuq Mərcanlıda yaşayışın bərpa olunacağı xəbərini eşitməsi onu çox sevindirdi. Digər ərazilərimizin də, Dağtumas kəndinin də tezliklə azad olunmasını arzuladı.





Bəli, Azərbaycan qadını tarixən ləyaqət, şərəf simvolumuz olduğu kimi həm də qəhrəmanlıq, qorxmazlıq rəmzimizdir. Düzü, səhər açılanda ani olaraq fikrimdən onu da keçirdim ki, bəlkə Nübar xanım elə cəbhəətrafı kənddə yaşayan və uzun illər görüşmədiyi bacısıgildə qonaq qalıb, bizim Cocuq Mərcanlıya gedib qayıtmağımızı gözləyəcək ki, biz gələndən sonra maşına əyləşib şəhərə qayıtsın. Ancaq belə olmadı. O, bizimlə maşına tərəf gedəndə və bacısıgillə görüşüb-sağollaşanda mən Nübar xanımdan yarızarafatla soruşdum ki, bəs qorxmursan ermənilərin hədəfinə məruz qala bilərik? O da özünəməxsus əda ilə nədən qorxacağam ki, heç qorxsam buralara da gəlməzdim dedi. Abbas kişinin həyətindən çıxıb Qazaxlarla qonşuluqda yerləşən Mirzənağılı kəndini keçdik, kəndi çıxmamış yandırılıb yerlə-yeksan edilmiş evlərə gözüm sataşdı. Xanlar müəllimdən, Məhəmməd Misirovdan soruşmağa macal tapmamış onlar mənə izahat verdilər ki, bəs Şakir müəllim, Mirzənağılı kəndi ilə Cocuq Mərcanlı kəndi demək olar ki, bir-birləri ilə iç-içədirlər. Mirzənağılı arxı deyilən bir su arxı bu kəndləri bir-birindən ayıran təbii sərhəd rolunu oynayır. Maşının spidometri Qazaxlardan Cocuq Mərcanlıyacan heç 2 km-lik məsafə də yazmamışdı. Deməli bu kəndlərin ara məsafəsi piyada yolu mənzilində idi. Və Mirzənağılar kəndindən olan məktəblilərin çiyinlərində çanta Qazaxlar kəndi istiqamətinə getdiklərini müşahidə etdik. Öyrəndim ki, Qazaxlar və Mirzənağılar kəndlərinin orta məktəbləri də elə bir olub.

Cocuq Mərcanlı kəndi isə qaçqınlığa qədər 285 ailə olmaqla 195 evdən ibarət idi. Ayrıca orta məktəbi olub. İndii isə əhalinin sayı artıb 418 fərdi təsərrüfat olub. Onlardan 250 nəfərədək kənar yerdən kəndə gəlin köçüb.

Yandırılmış, xarabalığa döndərilmiş Cocuq Mərcanlı kəndinin görünüşü gözlərimizi dağladı, könlümüzü cadar-cadar elədi. Kəndin girişində asılmış ”Təhlükəli ərazilərə daxil olmayın!” SOS - həyəcan işarəsi olan plakatın yanında maşını saxladıq, düşüb kəndin acınacaqlı mənzərəsinə göz yaşları içərisində tamaşa etdik. Bir vaxtlar əhalimizin isti ana qucağı kimi sığındığı və özlərinə ev-eşik düzəltdikləri, ata-baba gorgahı kimi yaşadıqları kənd 24 ildir ki, yiyəsiz-sahibsiz qalmışdı. Erməni vandalları kəndi təbiəti qarışıq silib-süpürüb yox etmiş, uçurub dağıtdıqları xanəxarabalara ola bilsin də ki, mina da basdırmışdılar ki, elə buna işarə kimi plakatda bura ”təhlükəli ərazilər” kimi əks olunmuşdu. Amma Vətən torpağında ölməyin özü də bir şirin ölümdür. Bu mənada biz də ölümü gözümüzün altına alıb maşınla irəliyə hərəkət etdik. Kəndin şərq sahilində bir guşədə özünə ev tikib binəgüzərlik edən Oqtay Əbil oğlu Həziyevin yaşadığı evə sarı yön aldıq. İnsan ayağı dəyən yerlər cənnətməkana dönməlidir. Evin qabağında gözə dəyən maşın və adamlar insan həniri dəyən bu yerin qonaqlı-qaralı olmasını göstərirdi. Yanılmamışdıq. Bizi çox gülərüz qarşıladılar. Oqtayın 80 yaşlı anası Minarə Temir qızı Hakiyeva, həyat yoldaşı Güldəstə İmran qızı Mirzəliyeva, oğlu Ülvi, Oqtayın qardaşı Arif, qardaşı arvadı Xuraman Famil qızı Həziyeva, qardaşı oğlu Əbil, qardaşı qızı Aynurə... insan ayağı dəyməyən bu Vətən torpağını qəriblikdə qoymamışdılar. Axı, torpaq özü də canlıdır və onu Vətən edən vətəndaşlarından ayrı düşəndə qəriblik xiffəti çəkən torpağın ”çöhrəsi saralır” - xarabazarlığa çevrilir.

Dedim axı, aralıdan gələndə evdə qonaq-qara olduğunu sezdik. Biləsuvardakı köçkün qəsəbəsindən Oqtayın rəhmətə getmiş qardaşı İlqarın oğlanları İlhamla Fəhmin də, bacısı Minayə də, əmisi gəlini Tahirə Tahirova da neçə vaxt idi ki, Vətən torpağının bir guşəsində olan bu evdə qonaq idilər. Hətta Qubadlıdan olan və Sumqayıtda yaşayan Bərxudar Məmmədov da bura qonaq gəlmişdi. Özümlə ”Xudafərin” qəzetinin ayrı-ayrı saylarını da gətirmişdim. Qəriblikdə hamımız üçün doğma olan və Vətənin ətrini-nəfəsini aldığımız ”Xudafərin” qəzeti də bu uzun müddət ərzində ilk dəfə idi ki, Cəbrayıl torpağının bir parçası olan Cocuq Mərcanlı torpağına ”ayaq açmaqla” sanki öz vətəninə qovuşurdu. Ailə üzvləri ilə çay süfrəsi arxasında söhbət zamanı məlum oldu ki, rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov vaxtaşırı olaraq buraya gəlib baş çəkir, qayğıları ilə maraqlanıb lazımi köməkliklərini edir. Daim dövlət qayğısını öz üzərlərində hiss edən ailə başçısı əkinçilik, heyvandarlıq, arıçılıqla məşğul olduqlarını bildirdi. Bir nüansı da sonda qeyd edim ki, Bakıda yaşayan öz həmkəndliləri ilə ailə quran Oqtayın qızı Sahilə də məhz buradan gəlin köçüb. İnanırıq ki, dövlətimizin başçısının apardığı məqsədyönlü uğurlu daxili və xarici siyasət nəticəsində tezliklə Cocuq Mərcanlıda əvvəlki həyat tərzimiz bərpa olunacaq, toy səsi də, şənlik sədaları da kəndi öz başına götürəcəkdir!

***Şakir ƏLİFOĞLU***




# Akademik Tofiq Hacıyevin 80 illik yubileyi

Noyabrın 2-də Bakı Dövlət Universitetində görkəmli türkoloq, Əməkdar elm xadimi, "Şöhrət" ordenli akademik Tofiq Hacıyevin anadan olmasının 80 illik yubileyinə həsr edilən "Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi" mövzusunda respublika elmi konfransı keçirildi.

BDU-nun rektoru, akademik Abel Məhərrəmov T.Hacıyevin səmərəli elmi fəaliyyətindən, respublikamızda dilçilik elminin inkişafına verdiyi töhfələrdən danışıb, bildirdi ki, dilçi alim hələ gənc yaşlarından elmə böyük maraq göstərib, zəngin elmi fəaliyyəti ilə Azərbaycan dilçilik elminin inkişafında müstəsna rol oynayıb və bütün ömrünü bu sahəyə həsr edib.

Rektor T.Hacıyevin 30 il BDU-nun türkologiya kafedrasına rəhbərlik etməsindən, türkoloq mütəxəssislərin yetişdirilməsindəki rolundan söz açıb. Diqqətə çatdırılıb ki, görkəmli alim 1969-cu ildən ömrünün sonunadək bu ali məktəbdə dosent, professor, müəllim, kafedra müdiri kimi çalışıb, filologiya və dilçilik elminin, türkologiyanın inkişafında mühüm xidmətlər göstərib.

Tədbirdə "Akademik Tofiq Hacıyevin həyat və fəaliyyəti" mövzusunda məruzə ilə çıxış edən BDU-nun filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Elçin Məmmədov görkəmli alimin yaradıcılığından, zəngin elmi irsindən, Azərbaycan ədəbi dil tarixi, dialektologiya və türkologiya elminin inkişafında xidmətlərindən danışıb.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov çıxışında T.Hacıyevin ömür yolundan, dilçilik sahəsində böyük bir məktəb yaratmasından, prinsipial mövqeyindən, milli təəssübkeşliyindən bəhs edib. Bildirilib ki, hər hansı bir ölkənin tərəqqisində elm müstəsna rol oynayır. Azərbaycan elminin əsl himayədarı olan ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə elmimizin inkişafına yüksək diqqət və qayğı göstərib. Bu ənənə hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Görkəmli dilçi alimlə bağlı xatirələrini bölüşən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar vurğulayıb ki, gözəl ailə başçısı, təvazökar və səmimi insan olan T.Hacıyevin zəngin elmi irsi daim yaşayacaq, xalqımıza, elmimizə xidmət göstərəcək, nəsillərdən-nəsillərə ötürüləcək. T.Hacıyev kadr hazırlığı sahəsində də çox işlər görüb, dil tarixi, dialektologiya üzrə respublikamız və başqa türk xalqları üçün çoxlu elmi işçi yetişdirib. Onun elmi yaradıcılığında "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı tədqiqatlar mühüm yer tutur.



Daha sonra şərqşünas alim, BDU-nun ilahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev, Azərbaycanda Atatürk Mərkəzinin müdiri, Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov, AMEA-nın Dilçilik İnstitutunun direktoru, professor Möhsün Nağısoylu, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev çıxış edərək akademik T.Hacıyevin türkoloq, türkoloq-azərbaycanşünas kimi fəaliyyətindən, yalnız ölkəmizdə deyil, türk dünyası miqyasındakı xidmətlərindən, apardığı araşdırmalardan danışıblar. Diqqətə çatdırılıb ki, ölkəmizdə ədəbi fikrin, ədəbi dilin tarixinin bu günə gəlib çıxması və Azərbaycan dilinin türk dilləri müstəvisindəki mövqeyinin elmi-nəzəri baxımdan qiymətləndirilməsi alimin yaradıcılığının mərkəzində dayanırdı. Onun rəhbərliyi ilə 30-dək fəlsəfə doktoru və elmlər doktoru hazırlanıb. Alim iştirakçısı olduğu mötəbər beynəlxalq tədbirlərdə çıxışları ilə Azərbaycan elmini layiqincə təmsil edib. T.Hacıyevin çoxillik axtarışlarının nəticələri respublikamızda və onun hüdudlarından kənarda 500-dək elmi əsərdə, 20-dən çox kitabda, eləcə də monoqrafiya və dərsliklərdə əksini tapıb.

Akademikin Azərbaycan dilçiliyinin inkişafı sahəsində xidmətlərini və elmi-pedaqoji fəaliyyətini yüksək qiymətləndirən natiqlər vurğulayıblar ki, T.Hacıyevin dilçiliyin müxtəlif istiqamətlərinə dair yüksək nəzəri səviyyəsi ilə seçilən çoxlu sayda araşdırmaları türkologiya elminin nailiyyətləri sırasındadır.

Şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli çıxışının sonunda görkəmli türkoloq Tofiq Hacıyevin xatirəsinə yazdığı qəsidədən parçalar oxudu.

Yubiley tədbirində Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, birinci müavini Arif Fərzəliyev, RİH-in əməkdaşları da iştirak edirdilər.

Mərhum alimin ailəsi adından çıxış edən oğlu Azər Hacıyev atasının xatirəsinə göstərilən yüksək hörmət və ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Konfrans işini "Tofiq Hacıyev - görkəmli türkoloq", "Dilçilik" və "Ədəbiyyatşünaslıq" bölmələrində davam etdirib. Elm adamlarından Elbrus Əzizov, İsmayıl Məmmədov, İslam Vəliyev, Qızılgül Abdullayeva, Rəhilə Quliyeva, Afaq Məmmədova, Pərvin Eyvazov, Məhərrəm Məmmədli, Ülviyyə Hüseynova, Gültəkin Qarabağlı, Ramil Bayramov, Pərvanə Paşayeva, Afaq Ramazanova, Şakir Əlifoğlu, Giləxanım Paşayeva, Mahirə Quliyeva, Yeganə İsmayılova və başqalarının müxtəlif elmi mövzulara həsr olunmuş məruzələri böük maraqla qarşılandı. Bölmə iclaslarında ümumilikdə 117 məruzə dinlənilib, müzakirələr aparıldı.

# "Azərbaycanın soyuq silahları" kitabının rusca nəşrinin təqdimatı



Dekabrın 15-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Azərbaycanın soyuq silahları" adlı kitabın rusca nəşrinin ("İstoriçeskoye orujiye Azerbaydjana") təqdimatı keçirilib. Sevindirici haldır ki, kitabın araya-ərsəyə gəlməsinin əsas təşəbbüskarı və həmmüəlliflərindən biri həmyerlimiz hüquqşünas, baş ədliyyə müşaviri Adil Minbaşıdır. Kitabın digər müəllifləri isə Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin baş qərargah rəisi general-polkovnik Nəcməddin Sadıqov, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, hüquq elmləri doktoru Fuad Cavadov, Naxçıvan Muxtar Respublikasının sabiq ədliyyə naziri Azər Məmmədovdur.

Tədbiri Milli kitabxananın direktoru Kərim Tahirov açaraq, qeyd edib ki, "Azərbaycanın soyuq silahları" kitabı Azərbaycan hərb sənətinin qədim və şanlı tarixinə həsr edilib. K.Tahirov həmçinin bildirib ki, ölkəmizin hərbi ədəbiyyatı sırasında layiqli yer tutan bu kitabda xalqımızın görkəmli sərkərdələri, silah ustaları barədə ətraflı məlumat verilib, ən qədim dövrlərdən XIX əsrə qədər Azərbaycan hərb sənətinin inkişafının bütün mərhələləri işıqlandırılıb.




Mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev çıxışında Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin silahlı qüvvələrinə daim diqqət və dəstək göstərdiyindən, Azərbaycan ordusunun qüdrətinin günbəgün artmasından danışıb. Bildirib ki, 2016-cı il aprel döyüşləri buna əyani nümunə oldu. Həmin döyüşlərdə bizim hərbi qulluqçular igidlik göstərərək düşməni dəf etdilər, torpaqlarımızın bir hissəsi işğaldan azad olundu.

Ə.Vəliyev ilkin variantı Azərbaycan dilində çap edilmiş "Azərbaycanın soyuq silahları" kitabının rus dilindən əlavə, başqa dillərə tərcümə ediləcəyinin planlaşdırıldığını da diqqətə çatdırıb. O, əsərin müəlliflərinə ölkəmizin hərb sənəti tarixinə verdikləri bu sanballı töhfəyə görə təşəkkürünü bildirib.

Diskussiyalar şəritində davam edən tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının I müavini, YAP rayon təşkilatının sədri Arif Fərzəliyev də iştirak etmişdir.

***"Xudafərin"***

# *Elegiyadan doğulan şəhadətnamələr*

12. Mən ömrümdə-həyatımda iki dəfə şəhid oldum. Amma yenidən doğuldum. Birinci dəfə xarici düşmənlərimiz - açıq-aşkar şəkildə özlərini bizim (türkün) düşmənimiz kimi göstərən maskasız düşmənlər - ermənilər tərəfindən döyüşdə əsir götürüldüm, ölümün caynağına keçdim. Lakin oradan Allahın qisməti ilə öz ağlım, fərasətim, mənəvi və fiziki iradəm sayəsində xilas olub, ikinci dəfə yenidən dünyaya gəldim.

Amma ikinci dəfəki şəhidliyim bundan da betər qiyamət oldu, dəhşəti aləmi bürüdü. Saf, ülvi, pak eşqimin yolunda şəhid oldum. İnsandonlu iblislərin - maskalı simasız düşmənlərimin - şeytanların qurduğu tora ilişib məhv oldum. Məni dirigözlü şəhid elədilər. Qədim, orta əsrlərin zamanındakı qadın hüquqsuzluğunun yerini indiki əyyamda - müasir zəmanədə əksinə, şeytandonlu iblisanə qadınları başımıza çıxardıb özümüzə baş tacı eləməyimiz tutdu. Qadın məkri, qadın hiyləsi (söhbət şeytancildli qadınlardan gedir) həqiqi aşiqləri bir-birinə qovuşmağa qoymadı. Nə aşiq, nə məşuq bu tordan baş çıxara bilmədi. Çünki şeytanın fitnəsindən, cadu-pitisindən tövbə-əstəğfürullah, heç Allah özü də baş aça bilmir. Onda qala biz Allah bəndələri olaq. Mən də beləcə bir aşiq kimi şeytan fitnəsindən şəhid oldum.

***Şakir ƏLİFOĞLU***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə noyabrın 17-də Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Cəbrayıl rayonunun işğaldan azad edilmiş yeganə yaşayış məntəqəsinə - Cocuq Mərcanlı kəndinə gedib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, Əli Həsənov əvvəlcə kənddəki vəziyyətlə tanış olub, sonra burada yaşayan yeganə ailəyə baş çəkib. Yeddi nəfərdən ibarət Həziyevlər ailəsi 23 ildir ki, Cocuq Mərcanlı kəndində yaşayır.

Ailənin başçısı Oktay Həziyev Baş nazirin müavini ilə söhbət zamanı bildirib ki, kənd işğal ediləndən sonra müvəqqəti olaraq başqa yerlərdə məskunlaşmış, orada bəzi insanların biganə münasibətilə rastlaşmışdılar. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan uğurlu Horadiz əməliyyatından sonra işğaldan azad olunmuş doğma kəndlərinə qayıdıblar. Doğma yurddan uzaqda yaşamağın çətin olduğunu deyən Oktay Həziyev yenidən Cocuq Mərcanlı kəndində yaşamaqdan qürur duyduğunu ifadə edib.

Baş nazirin müavini söhbət zamanı Horadiz əməliyyatından danışaraq qeyd edib ki, Ermənistanın qondarma prezidenti Sarkisyan Beyləqan rayonunu da işğal edəcəklərini bildirmişdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1993-cü ilin noyabrında yaranmış vəziyyətlə bağlı televiziya ilə xalqa müraciət etdi. Sonra dekabrda hərbiçilərlə görüşdü və Horadiz əməliyyatının planı quruldu. Həmin sonlarında aparılan uğurlu əməliyyat zamanı ordumuz işğal olunmuş bu əraziləri azad etdi. 1994-cü ilin aprel ayında ulu öndər Heydər Əliyev Füzuli rayonuna gəldi, səngərdə hərbiçilərlə görüşərək onları qələbə münasibətilə təbrik etdi və işğaldan azad olunmuş ərazilərin bərpasına və yenidən qurulmasına göstəriş verdi.

Oktay Həziyev deyib: Biz kəndimiz işğaldan azad olunan vaxtdan burada yaşayırıq. Kənddə həyatımız üçün heç bir təhlükə yoxdur, tam sərbəst və arxayın yaşayırıq. Çünki İlham Əliyev kimi Ali Baş Komandanımız var, güclü, qüdrətli Azərbaycan Ordusu var. Burada əkin-biçinlə, heyvandarlıqla məşğul oluruq. Taxıl, yonca, arpa və bostan bitkiləri əkirik. 600-ə yaxın xırda, 70-ə yaxın iri buynuzlu mal-qara, 300-ə yaxın toyuq-cücə saxlayırıq. O cümlədən arıçılıqla məşğul oluruq. Dövlət tərəfindən bizə hər cür dəstək göstərilir. Kənd təsərrüfatı ilə məşğul olmaq üçün bizə Aqrolizinq ASC tərəfindən texnikalar verilib. Kəndimizin suyu, elektrik enerjisi, qazı, bir sözlə, hər cür şəraitimiz var. Lələtəpə yüksəkliyi işğaldan azad olunandan sonra bizim təhlükəsizliyimiz daha da gücləndi. Prezidentimizin Lələtəpə yüksəkliyinə gəlməsi, torpaqlarımızın müdafiəsində dayanan əsgərlərimizlə görüşməsi bizdə qürur hissi və böyük ruh yüksəkliyi yaratdı.

Baş nazirin müavin qeyd edib ki, Horadiz əməliyyatı kimi aprel döyüşləri də Azərbaycan tarixinin şanlı səhifələridir. Prezident İlham Əliyev Lələtəpə yüksəkliyindən bütün dünyaya, eləcə də Ermənistana və onun işğalçı prezidentinə öz mesajını verdi. Bu gün bizim çox güclü ordumuz var. Qüdrətli ordumuz istənilən vaxt işğal olunmuş ərazilərimizi azad etmək gücündədir. Aprel döyüşləri bunu bir daha sübut etdi. Ancaq Ali Baş Komandan İlham Əliyev bu problemin sülh yolu ilə həllinin tərəfdarıdır. O istəmir ki, yenidən qan tökülsün. Əgər Ermənistan düzgün yola gəlməsə, müharibə yolu ilə olsa da, biz torpaqlarımızı mütləq azad edəcəyik. Bu bizim haqqımızdır.

Baş nazirin müavini ilə söhbət zamanı Oktay Həziyevin 84 yaşlı anası Minarə Hakiyeva başına gələn hadisələrdən danışdı. Dedi ki, bütün bunlar onu öz yolundan döndərməyib. Ömrünün sonuna kimi doğma kəndində yaşayacaq və bunu övladlarına da tövsiyə edib.

Bu ailənin bütün məcburi köçkünlər üçün nümunə, vətənpərvərlik göstəricisi olduğunu vurğulayan Əli Həsənov deyib: Bu gün Bakı şəhərində acınacaqlı şəraitdə yaşayan məcburi köçkünlərə rayonlarda salınan qəsəbələrdə hər cür şəraiti olan evlər təklif edirik. Çünki bu insanlar əvvəllər də rayonlarda yaşayıblar və bizim xalqda torpağa bağlılıq daha güclüdür. Vətən doğulduğun torpaqdan başlayır. Məcburi köçkünlərimiz bunu başa düşməlidirlər. Bakıda ağır şəraitdə yaşamaqdansa, doğma yerlərə qayıtmalıdırlar. Bu gün cənab Prezidentin qayğısı nəticəsində məcburi köçkünlərin müvəqqəti olaraq məskunlaşdırılması üçün yeni qəsəbələr salınır. Torpaqlar işğaldan azad olunandan sonra bu cür qəsəbələr həmin ərazilərdə də yaradılacaq, orada bütün infrastruktur yenidən qurulacaq.

Sonda Oktay Həziyevin ailəsinə mövcud imkanlar çərçivəsində müvafiq yardım olunub.

Oktay Həziyev bütün məcburi köçkünlərə, o cümlədən Cocuq Mərcanlı kəndinin sakinlərinə müraciət edərək onların da qayıdaraq öz kəndlərində yaşamalarına çağırdı: Bizim ailə 23 ildir öz doğma kəndində yaşayır. Bura bizim doğma torpağımızdır. Torpaqdan güclü heç nə ola bilməz. Bu gün mən özümü çox güclü hiss edirəm. Çünki mən öz doğma vətənimdəyəm.



"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

# "Xudafərin" qəzetinin 85 illik yubileyi qarşısında

## Sirac Rüstəmov - 85

## Əməl dəftərimiz vərəqləndikcə...




Gələn il "Xudafərin" qəzetinin 85 illik yubileyidir. "Lenin bayrağı", "Kolxozçu" və "Xudafərin" - tarixin çarxında bu cür addəyişmələrinə məruz qalmaqla mühüm bir tarixi inkişaf yolu keçən qəzetimiz məzmun və şəkilcə də təkamül yolu qət etmişdir. Bəs bu ad, şəkil və məzmunun dəyişmələrinin ilk baxışda üzdə görünməyən qatlarından nələr boy göstərib? Daha dəqiq ifadə eləsək, quru, cansız kağız materialında maddiləşən qəzeti canlı bir hala gətirib, ona əbədiyaşarlıq məzmunu verənlər isə qəzetin səhifələrinə öz ürəyinin hərarətini verənlər, bu mübarək missiyaya canlı bir ömür sərf edənlərdir. Vətən uğrunda onun əsgərləri döyüşüb canlarını fəda etdikləri kimi, qəzetin də üstündə öz yazı dəsti-xətti ilə jurnalist ordusu çalışıb fədakarlıq göstərir. Başqa sözlə, qəzetin yaşından, yubileyindən söhbət gedəndə, onun səhifələrində qələmləri ilə vuruşan-çarpışan ziyalılarımızın ömür kitabı, əməl dəftəri gəlib gözlərimizin önündən keçir. O ziyalılarımızın biri də uzun müddət məsul katib və redaktor vəzifələrində şərəflə fəaliyyət göstərmiş Sirac Misir oğlu Rüstəmov olub. Sirac müəllimin xatirəsi işığında qələmə alınmış" Müdrikliyin zirvəsi" ("Səda",2006) məqalələr toplusunu gözdən keçirdikcə bir daha onun rayonumuzun ictimai-siyasi həyatında göstərdiyi mühüm xidmətləri əyani olaraq gözlərimiz qarşısında vərəqlənib-oxunur. Bir sıra qələm adamlarının - qələm dostlarının, işçi həmkarlarının, yetirmələrinin, yaxınlarının imza atdıqları bu yazılarda Sirac Misir oğlunun portret cizgiləri müxtəlif tərəfləri ilə öz əksini tapıb. Əhəd Süleymanovla Bahadur Mehdiyevin tərtibçiliyi ilə işıq üzü görən bu kitabda Aslan Aslanov, Abasqulu Fərzəliyev, Arif Fərzəliyev, Əlirza Xələfli, Məsaim Abdullayev, Hafiz Hüseynxanlı, Fazil Güney, İsmayıl İmanzadə, Sefi Behbudov, Çapar Kazımlı, Tariyel Abbaslı və başqa müəlliflərin ürək sözləri özünə yer alıb...

Bəli, insan ömrünün mahiyyəti xatirələr yığınında daha aydın şəkildə üzə çıxır. Kimin kim olduğu şahidlərin ifadələrində daha canlı görünür. Ümumiyyətlə düşündükdə elə bizim hər birimiz öz ömrümüzü-günümüzü mənəvi yaşam inikası olaraq xatirələrə çevirərək yaşayırıq. Xatirələr ömrümüzün gündəlik yol yoldaşı olub da, bizdən sonra da bizləri qeyri-ixtiyari olaraq özündə yaşadan həyat hekayətlərimizdir. Kim necə olub sualına xatirələrin şəffaf güzgüsündə əyani cavablar tapılır. Necə ki, biz rəhmətlik Sirac Rüstəmovun anadan olmasının 75 illiyi münasibətilə 2006-cı ildə çap olunmuş xatirələrin işığında bunun əyani təzahürünü görürük.

Bu gün təkcə respublikamızda yox, respublikamızdan çox-çox uzaqlarda da tanınan "AzərTAC" İnformasiya Agentliyinin baş direktoru Aslan Aslanovun xatirələri işığında öyrənirik ki, Sirac müəllim həm də rayonumuzda jurnalistyönümlü gələcək kadr hazırlığı istiqamətində də bir məktəb yaratmışmış: "Yazım qəzetdə çıxdı. Kənddə əməlli-başlı hörmət qazandım. Həvəsləndim, kiçik həcmli olsa da, hərdən yazılar hazırlayıb redaksiyaya gedirdim. Qəsəbənin içindən keçən çaylağın sağ sahilində ikimərtəbəli xudmani bir binada yerləşən redaksiya yavaş-yavaş mənə doğmalaşırdı. Ona görə ki, mən burda, həqiqətən çox böyük qayğı, yüksək insani münasibət gördüm. Bu isə bilavasitə Sirac müəllimlə bağlı idi. Çünki redaksiyaya gəldiyimi bilən kimi Sirac müəllim hər dəfə məni yanına çağırar, yazımı diqqətlə oxuyub düzəlişlərini edər, hətta vaxt tapıb xeyli söhbətə də tutardı. Kənd uşağı olsam da, bilirdim ki, qəzet redaktoru yüksək vəzifədir və Sirac Rüstəmov da rayonda çox böyük nüfuza malikdir. Amma biz onunla elə dostlaşmışdıq ki, hər dəfə yanına gələndə özümü səmimi, mehriban bir müəllim yanındakı kimi hiss edirdim. Ən vacibi isə Sirac müəllim özümə olan inamımı artırdı və mən jurnalist olmaq fikrimdən daşınmadım.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsidə oxuduğum illərdə də hər tətilə gələndə mütləq Sirac müəllimlə görüşməyi özümə borc bilirdim. O vaxtlar yay semestrinin imtahanlarından sonra biz tələbələrin böyük əksəriyyətini Bakıda müxtəlif mətbuat orqanlarında təcrübə keçməyə saxlayırdılar. Mən də iki il dalbadal "Kommunist" qəzetində təcrübədə oldum. Yayın istisində Bakıda qalmağın çətinliklərinə, bir də üzümə yaxşı baxdıqlarına görə mən üçüncü il dekanımızdan xahiş edib təcrübəmi rayon qəzetində keçməyə razılıq ala bildim. Düzünü deyim ki, "Kolxozçu" qəzetindəki təcrübəm ürəyimcə oldu, qəzetdə tez-tez yazılarım çap olundu, Sirac müəllimlə dostluğumuz daha da möhkəmləndi" (səh. 24-25).

Bu ifadələrdən aydın görünür ki, Sirac müəllim bir qəzet redaktoru olmaqla rayonda gənclərin mətbuata gəlməsində çox böyük həvəs oyadar, eyni zamanda o dövrün gənclərinə, ixtisaslı jurnalist tələbələrinə redaksiyada təcrübə kursu keçməkdə böyük köməkçi olar, jurnalistikanın sirlərinə yiyələnməkdə yardım edərmiş. Burdan həm də o qənaət hasil olur ki, aşıqlıq sənətində ustad-şəyird (şagird) ənənəsində olduğu kimi, adi bir rayon qəzeti redaksiyasında da baş redaktor kimi Sirac Rüstəmov da jurnalistika aləmində özündən sonra özünə layiq jurnalistlərin yetişməsi üçün sağlam mənəvi ab-hava formalaşdırıbmış. Belə ki, biz bu cür faktlara təkcə yuxarıdakı məqalədə yox, digər müəlliflərin xatirələrində də rastlaşırıq. "Bizim qəzetin redaktoru, cəbrayıllı jurnalistlərin korifeyi" adlı yazıdan bir parçaya diqqət eləsək, buna bir daha əmin olarıq:

"Sirac Rüstəmov qiyabi yolla təhsilini BDU-nun jurnalistika fakültəsində davam etdirmişdir. Özünün iti prinsipial qələmi ilə seçildiyindən Cəbrayılr Rayon Partiya Komitəsi onu rayon PK orqanı olan "Lenin bayrağı" (sonralar "Kolxozçu", indi isə "Xudafərin") qəzetinə katib vəzifəsinə təyin etmişdi. Onun səyi, bacarığı ilə qəzetin ətrafına çoxlu yazarlar toplaşmış, oxunaqlığı artmış, bu barədə respublika mətbuatında müsbət fikirlər səsləndirilmişdir. Bu müvəffəqiyyətlərə görə Cəbrayıl RPK "Lenin bayrağı" qəzetinin baş redaktorluğunu gənc Sirac Rüstəmova tapşırmışdı.

O, bu məsuliyyətli işdə ona göstərilən etimadı doğrultdu. Qəzetin simasında ciddi dəyişikliklərə nail oldu. Qəzetin maddi-texniki bazasını, çap səviyyəsini, yazılarının ciddiliyini təmin etdi. Oxucuların qəzetə marağı çoxaldı, onun nüsxələrinin sayı iki dəfə artırıldı. Qəzetin baş məqalələri rayon əhalisini iqtisadiyyatı artırmağa səfərbər edir, mədəni-maarif işinin yayılmasına xidmət edirdi. Məqalələrində o, şəxsi nümunəsi və qabiliyyəti ilə böyük söz, sənət, istedad sahibi, kamil təşkilatçı, gözəl jurnalist olduğunu sübuta yetirdi. Sirac Rüstəmovun "Təhsilimizi həyatla əlaqələndirək", "Şagirdlərimizə dərin və əsaslı bilik verək", "Təhsildə qabaqcıl dünya təcrübəsini öyrənək və məktəblərimizdə tətbiq edək", "Müəllim", "Müəllimlərə diqqət və qayğını artırmaq lazımdır", "Məktəb diqqət və qayğı tələb edir", "Məktəbin maddi-texniki bazasını möhkəmlətmək yüksək təlim keyfiyyəti deməkdir", "Bir dənin yerə düşməsinə imkan verməyək, "Su həyatdır - kəhrizləri qoruyaq" və s. onlarca yazılarında rayon zəhmətkeşlərini, ziyalılarını əməyə, mənəvi saflığa, yetkinliyə, vətəni sevməyə. onun qüdrətini, iqtisadiyyatını, maarif və mədəniyyətini yüksəltməyə səfərbər edir, bu müqəddəs amala səsləyirdi.

Baş redaktor kimi rəhbərlik etdiyi yazarlara diqqətlə yanaşır, onların maddi və mənəvi vəziyyətləri ilə maraqlanırdı. Ştatdankənar müxbirlərlə redaksiya əməkdaşlarının görüşlərini təşkil edir, onların yazılarının bədii-estetik, publisistik səviyyəsinin artırılmasına istiqamət verirdi.

Sirac müəllimin təşəbbüsü ilə redaksiyanın yanında ədəbi yazarların dərnəyi təşkil edilmişdir ki, həmin dövrdə bu dərnəyin iştirakçıları içərisində Qorxmaz Abdullayev, Əlirza Əzizli (Xələfli), İsmayıl İmanov, Əziz Musa, Kamil Məmmədov, Əlisahib İsrafilzadə, Sabir Məmmədov kimi bir çox yazıçılar, şairlər yetişmişdir bizim dövrdə.

Sirac müəllim qəzet vasitəsilə ona müraciət edən onlarca şikayətçinin haqq işinin qələbəsini təmin etmişdir.

Sirac Rüstəmov eyni zamanda redaksiya əməkdaşlarının ixtisaslarının artırılmasını daim diqqətdə saxlamaqla, onlara ali jurnalist təhsili almalarına öz xeyirxahlığı ilə real şərait yaratmışdır.

Sirac müəllim redaktor işlədiyi illərdə qəzet əməkdaşlarından Afər Əhmədov, Barat Mirkişiyev, Sərməst Seyidəliyev, Əmir Abbasov, Əlirza Əzizov, Qorxmaz Abdullayev, Tənzilə Camalova, Seyfəddin Əliyev, Yusif Ağayev kimi şəxslər ali jurnalist təhsili almışlar.

Qəzetin ştatdankənar əməkdaşlarının böyük bir nəsli yetişmişdir o illərdə. Həmin şəxslər indi də respublika mətbuatında şərəflə çalışırlar.

Sözün mütləq mənasında demək lazımdır ki, 60-70-ci illərdə Cəbrayılda jurnalist kadrların yetişib ərsəyə gəlməsində Əfsər Məmmədov, Ədil Şərifovla birlikdə Sirac Rüstəmovun misilsiz xidmətləri olmuşdur ki, bunu hazırda bütün cəbrayıllılar etiraf edir, xoşhallıqla yad edirlər" (səh. 11-13).

Özünün Sirac müəllimə həsr etdiyi geniş həcmli oçerkindən gətirdiyimiz bu hissədən də biz bir ziyalı kimi S.M.Rüstəmovun malik olduğu insani keyfiyyətlərlə də yaxından tanışlıq tapırıq. Deməli, bu fikirlərdən də bir daha təsdiqlənir ki, onun təxminən 15 iləcən olan bir vaxtda, 1965-1980-cı illərdə bu qəzetdə çalışması, redaktor kimi fəaliyyət göstərməsi təsadüfi deyildir. Çünki təkcə ali təhsilli jurnalist kimi bu vəzifəyə gəlmək şərt deyildi, həm də baş redaktor kimi ona belə məsul, şərəfli bir vəzifə postunun həvalə olunmasında bəslənən etimadı layiqincə doğrultmaq idi başlıca prinsip, meyar. Məhz Sirac müəllim ona tapşırılmış bu məsul postda yalnız bir cəsarətli qələm əhli kimi özünü doğrultmadı, həm də qəzetin ətrafına rayonun müxtəlif bölgələrindən istedadlı qələm sahiblərini toplamaq-ştatdankənar və ştatlı (xüsusi) müxbirlər ordusu toplayıb səfərbər etməklə də özünü doğrultdu. Eyni zamanda savadlı, ixtisaslı jurnalist kadrların yetişməsində də üzərinə düşən məsuliyyətli missiyanı yerinə yetirdi. Buradan isə həm də o nəticə çıxır ki, rayonda peşəkar jurnalistika ilə bağlı, jurnalistlik peşəsi ilə bağlı da müəyyən bir tendensiya formalaşdıran Sirac müəllim sanki bununla ustad-şagird ənənəsi formalaşdırmış oldu və özündən sonraya özünün davamçılarını yadigar qoyub getdi.

Bu isə elə həm də o mənaya gəlir ki, insanı bu dünyada əməlləri yaşadır. Əlbəttə ki, praktiki baxımdan həyata keçən, həyatda yaşayan praktiki əməllərin yerini burada xüsusilə qeyd etmək lazımdır. Bu baxımdan düşündükdə Sirac müəllim çox xoşbəxt bir insandır ki, özündən sonra Cəbrayıl rayonunda böyük bir jurnalist nəsli formalaşdırdı və bir ustad jurnalist kimi ərməğan qoyub getdi. Bu gün məhz həmin jurnalistlərin xatirələrində, yazılarında və ən başlıcası da bir vaxtlar xeyli müddət redaktoru olduğu qəzetimizin yaşamasında, xüsusilə də qəzetimizin bu yubileyi ərəfəsində xatirəsi anılmaqla Sirac müəllim ömrü yaşayır. Elə 85 illik yubileyimizin işığında onun haqqında qələmə alınan bu yazı da əbədiyaşarlığın bir nümunəsidir və nə qədər ki, "Xudafərin" qəzeti yaşayır, bu qəzetdə can qoymuş yazarlarımızla birgə Sirac Rüstəmov ömrü də mənəvi baxımdan yaşayır. Çünki "Xudafərin" qəzeti həm də Cəbrayıl jurnalistlərinin bir "haqq-hesab kitabı" - əməl dəftəridir. Və bu əməl dəftərində izi olan, imzası qalan xoşbəxt tale sahiblərindən biri də Sirac Rüstəmovdur. Bəli, Xudafərin adlı əməl dəftərimiz vərəqləndikcə, orada əbədiyaşarlıq mücəssəməsinə çevrilənlərdən birinin də məhz Sirac müəllim olduğu tam aydın görünür.

Əlbəttə, insan sadəcə bioloji varlıq yox, həmçinin də mənəvi varlıqdır. Qəzet isə mənəvi simanın əksetdiricisidir. Mənəvi dünyamızın özəllikləri yazılarımızın timsalında qəzetin səhifələrində işıqlığa çıxır, ictimai mühitə yayılır. Sirac Rüstəmov ömrü mənəvi olaraq öz davamını qəzetimizdə yaşadır.

Mən yuxarıda haqqında söz açdığım xatirələr toplusunda "Tələbkar və səliqəli insan" adlı bir yazının adında ifadə olunan mənaya da toxunmaq istərdim.

"1983-cü ildən, Rayon mərkəzində əmək fəaliyyətinə başlayandan Sirac müəllim mənim yaddaşıma çox ciddiliyi, səliqəli geyimi və özünəməxsus təbəssümü ilə daxil oldu. Sonralar biz tez-tez müxtəlif səviyyəli yığıncaqlarda, məclislərdə görüşərdik. Atamla bir neçə dəfə bizim kənddəki evimizdə qonaq da olmuşdu Sirac müəllim. Atam rayon mərkəzində uzun müddət işlədiyi üçün Sirac müəllimlə yaxşı münasibətləri vardı" (s.75).

Həmin yazının müəllifi Arif Fərzəliyev sanki bu fikirlərin həm də məntiqi davamı kimi digər bir yerdə isə "Hər yerdə olduğu kimi Sirac müəllim yemək-içməkdə də səliqəli idi" ştrixi ilə yazının adındakı mənanı tam uzlaşdırıb məqaləyə bu adı havayı seçmədiyini bir daha diqqətə gətirir. Buradakı "tələbkarlıq" ifadəsi onun öz işində tələbkar-ciddi bir insan olduğuna işarədir. Çünki qeyri-ciddi adamdan həyatda heç bir şey gözləmək olmaz. Hər şeydən əvvəl, insanın üzərinə düşən vəzifə səlahiyyətləri ondan tələbkar olmağı tələb edir ki, məsul olduğun işdə müəyyən irəliləyişlərə nail olasan. Məqalənin adındakı ikinci tərəf - "səliqəli" ifadəsi isə sözün bütün parametrlərində səliqəli olmağa eyham vurur. Əgər belə olmasaydı, yazı müəllifi nə bu ifadəni sərlövhəyə çıxardardı, nə də adıçəkilən yazıda başqa-başqa məqamlarda bu ifadəni qabartmazdı. Bəli, ziyalı hər bir məsələdə səliqəli olduğu kimi, Arif müəllimin çox doğru müşahidə edib, qeyd etdiyi kimi, "yemək-içməkdə də səliqəli" olmalıdır. Ona görə ki, bizim xalqımızın milli mentalitetində insanın səliqəliliyi, səliqəlilik siması özünü kompleks şəkildə tamamlamalıdır. Davranışda da, geyimdə də, yeyimdə də. Bəli, ziyalı öz rəftarı, ədəbi ilə yanaşı yemək-içməyində də bir mədəniyyət nümunəsi göstərməlidir. Bu incə məqam bəlkə də müasir dövrdə daha çox aktuallıq kəsb etməlidir. Bax, Sirac müəllim bir insan kimi, ziyalı şəxsiyyət kimi tələbkar və səliqəli bir insan kimi də xatirələrdə özünəməxsus iz qoymuşdur...

Bütün bu kimi məsələlər Sirac Rüstəmovun zəngin mənəvi dünyasından gələn və yaşayan soraqlardır. Onun ömrünün mənəvi baxımdan yaşarılığının göstəriciləridir.

Amma insan həm də cismani varlıqdır. Bu cəhətdən də o, xoşbəxt insandır ki, bu gün respublikamızın ictimai həyatında fəal iştirak edən və görkəmli dövlət xadimi kimi tanınan Elman Rüstəmov yalnız atasının cismani varisi yox, həm də mənəvi ömür yolunun davamçısıdır. Bütün bunlar isə bir daha onu deməyə haqq verir deyək ki, Sirac Misir oğlu Rüstəmov ömrü həm cismani, həm də mənəvi olaraq yaşayır..

***Şakir ALBALIYEV***

*2016-cı il "Multikulturalizm ili"dir*

# Azərbaycançılıq - multikulturalizmin milli formulu



**Şakir Albalıyev,**
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

"Tarixən Azərbaycan müxtəlifdilli xalqların məskəni olmuş və bu xalqları birləşdirən Azərbaycan dili olmuşdur. Bu dil həm Azərbaycan türklərinin, həm də bu bölgədə yaşayan etnosların ünsiyyət vasitəsinə çevrilmişdir. Bu da Azərbaycanda yaşayan bütün xalqlar arasında ortaq bir dilin yarandığını sübut edirdi.

Çox maraqlı faktdır ki, azsaylı xalqların örnəklərində qədim sözlər mövcuddur ki, bu da dilçilər üçün ən sanballı mənbədir. Bir neçə nümunəyə diqqət edək: Məsələn, udi dilində işlənən siyux-sıyıq, tabak (tabax) - xonça-sini; yəxni-yəxnə - ət yeməyi; saxur dilində işlənən qadax (qədək)-mismar; arxaç-arxac - sürü və naxırların yatağı, açıq havada istirahət etdiyi yer; ərava-araba; doxxaz (doqqaz)-küçə-həyət qapısı və s. qədim türk sözləridir və günü bu gün nitqdə işlənməkdədir".

Tərtibçisi olduğu "Azsaylı xalqların folkloru"na (I kitab) yazdığı ön sözdə filologiya üzrə fəlsəfə doktoru Mətanət Yaqubqızı çox doğru olaraq Azərbaycanda yaşayan azsaylı xalqları Azərbaycan dili adlı ortaq bir dilin birləşdirdiyini göstərmiş və daha sonra buna əyani misalları da çəkmişdir. Bəli, ölkəmizin bütün xalqları məhz Azərbaycan dili adlı bir ünsiyyət vasitəsindən ortaq şəkildə istifadə etməklə, bu dil vasitəsilə də ümumazərbaycan mədəniyyətinə yiyələnmişdirlər. Dil özü, hər şeydən əvvəl, bir mədəniyyət faktorudur. Bu dildə danışanların hamısı bu dil vasitəsilə bütün mədəni davranış formullarından tutmuş milli-mənəvi dəyərlərə qədər hamısına bələd olmuşlar və bu tanışlıqla da mədəni inteqrasiya prosesinə qoşulmuşlar. Bütün mədəni alış-verişlər hamısı ümumi ünsiyyət tapılmaqla gerçəkləşmişdir. Heç təsadüfi deyil ki, xalqımızın bu barədə məşhur bir el misalı var: "heyvan iyləşə-iyləşə, insan dilləşə-dilləşə". Yəni heyvanlar iyləşmə-instinkt vasitəsilə bir-birlərini anladıqları kimi, insanlar da "dilləşə-dilləşə", yəni öz aralarında dil tapmaqla ümumi bir ünsiyyət kodu hesabına birləşib ortaq məxrəcə gələ bilmişlər. Beləcə də, tarixən Azərbaycana gəlib orada məskunlaşan digər etnik tayfalar da məhz Azərbaycan xalqının adət-ənənəsi, məişət şəraiti ilə Azərbaycan dili adlı ünsiyyət vasitəsilə tanışlıq tapmışlar. Azərbaycan dili vasitəsi ilə bu dili daşıyan xalqın psixologiyasını, milli-mənəvi dünyasını öyrənib bilən etnoslar bu mədəni irsə getdikcə daha dərindən yiyələnmiş və nəticədə tarixən bölgədə vahid Azərbaycan dili ətrafında birləşən müxtəlif qəbilə və tayfaların, xalqların ümumi bir məcraya yönələn, sığan mədəni dəyərlər kompleksi formalaşmışdır. Bu minvalla Azərbaycan ta əski çağlardan multikulturallığın beşiyinə dönmüşdür. Multikulturalizmin azərbaycançılıq modelinin bu gün regionda və dünyada parlaq təzahürünün səbəbi də məhz onun bu qədim tarixi əsaslara malik olmasından qaynaqlanır. Heç təsadüfi deyildir ki, "Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları" kitabında bu ideologiyanın əsasının qədim keçmişimizdən gəldiyi vurğulanır:

"Azərbaycançılıq - Azərbaycan xalqının 1) dərin (və mükəmməl) etnoqrafik əsasları olan, 2) XIX əsrin sonu - XX əsrin əvvəllərində formalaşmış və 3) kifayət qədər mürəkkəb, ziddiyyətli (nəticə etibarilə uğurlu) bir təkamül tarixinə malik milli ideologiyasıdır ki, üç üzvi təkib hissəsindən ibarətdir:

**1) türkçülük,**
**2) müsəlmançılıq,**
**3) müasirlik (dünyəvilik).**

Hər hansı milli ideologiya o zaman kamil hesab oluna bilər ki, xalqın ruhundan, mentalitetindən, "tərcümeyi-halı"ndan gəlsin. Və Azərbaycançılıq ideologiyası bu baxımdan həqiqətən müasir dünyanın ən mükəmməl ideologiyalarından biridir. Bu ideologiyanın min illərlə ölçülən çox dərin (çoxşaxəli!) etnoqrafik kökləri ilə yanaşı kifayət qədər əsaslı (mütəşəkkil!) metafizikası da mövcuddur. Belə ki onun (azərbaycançılıq ideologiyasının) mahiyyətində (fəlsəfəsində) üç tamamilə humanist (və insan cəmiyyətinin təhtəlşüur, yaxud təbii bir şəkildə, "müdaxiləsiz" yaratdığı!) dəyər komponenti və ya kompleksi ifadə olunur:

**1) etnik və ya milli mənsubiyyət,**
**2) dini mənsubiyyət,**
**3) ümumbəşəri və ya dünyəvi mənsubiyyət.**

Bu ideologiyada öz əksini tapmış fəlsəfə və ya metafizikada, eləcə də onun mənsub olduğu (və onu yaradan) xalqın təfəkküründə nə etnik məhdudluq, nə dini dözümsüzlük, nə də antihumanizm yoxdur. Yalnız o var ki, Azərbaycan xalqı da dünyanın bütün digər normal (az-çox mükəmməl!) xalqları kimi müəyyən bir etnik mənşəyə, müəyyən bir dini dünyagörüşünə mənsubdur və bütün digər xalqlar kimi müasir dünyanın övladıdır" (səh.33).

Göründüyü kimi, burada da multikulturalizmin, onun Azərbaycançılıq məfkurəsinin özünü mükəmməl olaraq dünyada tanıtdıra bilməsinin, təsdiq etdirməsinin başlıca səbəbi haqlı olaraq onun bir ideologiya olaraq xalqın öz ruhundan doğduğu, xalqın öz tarixi taleyindən doğduğu - "tərcümeyi-halı"nın inikası olaraq təzahür etdiyi amillə izah olunur. Bu, həqiqətən də belədir. Azərbaycan torpağı 11 iqlim qurşağından 9-na malik olduğu kimi, müxtəlif iqlim qurşaqlarını öz təbiətində birləşdirdiyi kimi, müxtəlifdilli insanları da Azərbaycan dili və Azərbaycan mədəniyyəti adlı vahid dil və mədəniyyət faktoru ətrafında birləşdirən multikultural-tolerantlıq əhval-ruhiyyəsinin hakim olduğu müqəddəs məkandır. Azərbaycan öz təbiəti və insanlarının zənginliyi etibarilə "Gülüstani-İrəm" deyilən cənnət bağçasıdır. Mətanət Yaqub qızı "Ortaq mühit, ortaq adət-ənənə, ortaq dil" adlı yazısında dünyadakı dillərin, yeni millətlərin çoxluğu ilə bağlı bir rəvayətə işarə ilə yazır: "Allahın elçisi qatırın belində dünyanı dolaşır, nəhəg xurcunun ağzını açıb xalqlara dil paylayırmış. Çində olur. Onlara çin dili verir. Ərəbləri gedib tapır, ərəb dili verir. Yunanlara yunan, ruslara rus, fransızlara fransız dili verir... gürcülərə gürcü dili, osetinlərə osetin dili verir... qar çovğunu başlayır, kəndi-kəsəyi bürüyür. Allahın elçisi dibində iki ovuc paylanmamış dil olan xurcunu qaldırır və o dillərin hamısını dağlara səpələyir.

- Alın, kim hansını istəyir, seçsin, - deyir.

Qar-çovğun atılmış dilləri yarğanlara, qayalara çırparaq hara gəldi səpələyir. Hərə öz ana dilini tapır. Elə o zamandan dünyada avarlar, ləzgilər, darginlər, qumuqlar, tatlar, laklar peyda olur".

Düzdür, bu bir rəvayətdir. Ancaq çox maraqlıdır, doğrudan da bu bir faktdır ki, dil müxtəlifliyinin ən çox kök atdığı yerlər dağlıq ərazilərdir.

Bölgədə kompakt şəkildə yaşayan milli azlıqlar tarixən nəinki öz keçmiş milli adət-ənənələrini qoruyub saxlamış, hətta başqa millətlərin müəyyən xüsusiyyətlərini də mənimsəmişlər. Bu, onların həyat tərzində, məişətində özünü göstərir" (səh.12).

Burada da tədqiqatçı Azərbaycanda olan multikultural ab-havanın ortaq mühit, ortaq adət-ənənə, ortaq dil komponentləri ətrafında birləşib formalaşdığını açıb göstərir və bununla həm də onu ifadə etmək istəyir ki, bu mehriban birlik birbaşa içədn - ruhdan gələndir. Ona görə də ölkəmizdə multikultural yaşam forması özünü təbiiliklə doğruldur.

Başqa sözlə, dil xalqın danışığı ilə yanaşı həmin dildə danışan xalqın etnik psixologiyasının ifadəsi olaraq çıxış edir. Bu yolla xalqımızın danışıq dilinə yiyələnən qonşu etnoslar onun psixologiyasına, ruhuna, mədəniyyətinə də bələd olurlar, bu yüksək mədəni irsə tərəfdar olub yiyə durmaqla ümumazərbaycan mədəniyyətini yaradıb formalaşdırırlar. Beləcə, ümumazərbaycan mədəniyyətinin təşəkkül tapmasında bilavasitə iştirakçı olurlar. Nəticədə Azərbaycana kənardan gələn etnoslar üçün vahid Azərbaycan mədəniyyəti doğmalaşır, Azərbaycan özgə irqlər, etnoslar üçün interkultural bir sahə - məkan rolunu oynayır. Bu da yekunda xalqların həmrəylik məskəni olan doğma yurdumuzun əsrarəngiz təbiəti ilə yanaşı mənəvi ab-hava cəhətdən də sosial zənginliyinə əsaslı təminat yaradır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin aşağıdakı kəlamları elə ölkəmizin bu zənginliyinə rəğmən səslənmişdir:

"Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı Respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olar".

Ulu Öndərin qeyd etdiyi kimi, "öz taleyini, öz həyatını bu topağa bağlayan, müxtəlif dinlərə mənsub, müxtəlif millətlərin nümayəndələri" ölkənin ən başlıca sərvətidir - insan sərvəti, insan kapitalı. Bunun da başlıca səbəbi həmin yad etnosların, qeyri din daşıyıcılarının vaxtı ilə Azərbaycana köçüb gələrkən onların Azərbaycan xalqının mənəvi zənginliyinə bəslədikləri böyük hüsnrəğbətləri olmuşdur. Əbəs deyil ki, Azərbaycan xalqını şair xalq adlandırmayıblar. Şair xalq olmağımızın bir göstəricisi də insanlarımızın istiqanlı təbiətliliyindən irəli gəlir. Belə ki, Azərbaycana qədim keçmişdə təşrif buyuran digər xalqlar xalqımızdakı bu şairanə təbiəti - səxavətliliyi, istiqanlılığı, alicənablığı, bir sözlə, insani keyfiyyətləri görüb müşahidə etmiş və nəticədə insanlarımıza, doğma torpağımıza, vətənimizə isinişmiş - sığınmış və əbədi qalıb buranı özlərinə məskən, yurd seçmişlər, özlərinin dosdoğmaca vətəni hesab etmişlər. Bu gün isə artıq azərbaycanlı etnosu ilə qeyri-azərbaycanlı etnosunu bir-birindən ayırd edib aralamaq müşkül məsələyə çevrilmişdir. Çünki azərbaycanlıların xoş aurasında səmimi mühitdə, əlverişli şəraitdə bir-birlərilə o qədər səmimi, mehriban dostluq, qardaşlıq telləri ilə yaxınlaşmışlar ki, bu gün onları bir-birindən təcrid etmək belə mümkünsüzdür. Məhz bu səbəbdən də bu gün Azərbaycan vətəndaşı olan rus da, ləzgi də, talış da, yəhudi də, digər etnos və millətlər də sanki Azərbaycanda öz milli dəyərlərini yaşatmaqla bahəm həm də sanki öz milliliyini bir kənara qoyub, birbaşa Azərbaycanlı olurlar, Azərbaycan xalqının zəngin milli-mental keyfiyyətlərinin daşıyıcısı olurlar, başqa sözlə, Azərbaycanlılaşırlar. Doğrudan da, bu gün ölkəmizi həmin yad etnoslarsız da təsəvvürə gətirmək olmur. Çünki həmin irqlərin, millətlərin, dinlərin nümayəndələrinin özünün Azərbaycanda varlığı sanki ölkəmizin ictimai qalereyasına özünəməxsus bir rəng çaları qatmaqla əsrarəngiz bir zənginlik bəxş edir. Çünki biz İsmayıllıda malakanların xoş təbəssümü, Qubada, Qusarda ləzgilərin gülərüz siması, Astarada, Lənkəranda talışların istiqanlı rəftarı ilə qarşılaşanda özümüzü nə qədər bəxtiyar, qürurlu hiss edirik. Bu gün onlarsız Azərbaycanı təsəvvürdə canlandırmaq, elə bil ki, ölkəmizin sosial-etnik mənzərəsinin əlvanlığını pozmaq, sosial baxımdan Azərbaycanı yeknəsək, bənizi solğun görmək demək olardı. Azərbaycan təbiəti öz zəngin florası, faunası ilə göz oxşadığı kimi, Azərbaycan ictimaiyyəti də öz sosial-etnik mənşəyi baxımından könüloxşayan, qəlboxşayan zənginlik dərəcəsindədir. Bu baxımdan Azərbaycan xalqı qəribə, qonağa hədsiz ehtiram göstərdiyi kimi, özü də onların simasında özünə bir arxa-dayaq tapmış olur. Yəni insani münasibətlərin təbii qarşılıqlı ifadəsini xalqımız hər bir kəsə, etnik qrupa, xalqa, millətə qarşı bəsləyir. Özgəsinə xoş münasibət göstərir, özgəsindən də özünə qarşı eyni dərəcədə qarşılıqlı xoş-nəvazişli münasibət gözləyir. Başqa sözlə, xoş üz göstərdiyini özünə həm də arxa, kömək, dayaq, dost, qardaş hesab edir. Bir Azərbaycan nağılında bunun əyani inikası ilə rastlaşırıq. Belə ki, ölüm yatağında olan ata övladlarına son anda hər kənddə bir ev tikmələrini vəsiyyət edir. Deməli, hər kənddə, şəhərdə (diyarda-ölkədə) bir evin olsun vəsiyyət-tövsiyəsi xalqımızın etnik psixologiyasının aydın güzgüsüdür. Oğlanları ataları dünyasını dəyişdikdən sonra hər kənddə bir ev tikmək qərarına gəlirlər. Lakin sonradan bunun maliyyə baxımından mümkün olmadığını anlayırlar və nəticədə dərk edirlər ki, ataları onlara hər kənddə özlərinə bir dost tutmalarını vəsiyyət edibmiş. Yəni dost evi elə insanın öz evi, öz dayağı, istinadgah yeri olmaq deməkdir. Bu, nə deməkdir? Bu, atanın vəsiyyəti timsalında Azərbaycan xalqının həyata, dünyaya baxışını göstərən etnik psixologiyasının ifadəsidir. Yəni insanlar - xalqlar, millətlər, ölkələr arasında dostluq - qardaşlıq tellərini bu cür bu yolla qurub formalaşdırmaq ideyasıdır. Başqa sözlə xalqlar, millətlər, özgə dinlər arasında nifaq səpmək, düşmənçilik meylləri yaratmaq yox, dostluq, qardaşlıq körpüləri, binaları qurmaq, ucaltmaq fikri, ideyası azərbaycanlı etnosunun milli-mənəvi keyfiyyətidir. Yoxsa Ermənistandakı kimi ermənilərin monoetnik respublika qurmaqla bayquş kimi özünün öz başına - tək-tənha qalıb yaşamaq düşüncəsi özünəqapılmaqdan, xudbinlikdən başqa heç nə deyildir. İnsanı insan edən insani dəyərlərdir, humanist münasibətlərdir ki, bunun da əsasında insanlara dinindən, irqindən asılı olmayaraq hörmət, məhəbbət bəsləmək, dostluq, qardaşlıq duyğuları ilə bir-biri ilə qarşılıqlı iqtisadi-mədəni əməkdaşlıq etmək və s. kimi mühüm amillər dayanır. Bax budur Azərbaycan - türk etnosunun bəşəri duyğularının entnopsixoloji durumu və Azərbaycandakı multikultural-tolerant bir rejimin də mənbəyində bu cür içdən, daxildən süzülüb gələn mənəvi xüsusiyyətlər qorunub, saxlanılıb. Deməli, Azərbaycandakı tolerantlıq siyasətinin kökü dərin etno-mədəni rişələrə malikdir. Bu məsələdə xalqın iradəsi ilə ölkənin siyasi maraqları üst-üstə düşdüyündən daha möhkəmdir. Professor Vaqif Arzumanlının dedikləri də bu arada öz yerini alır: "Azərbaycan ölkəsi əsrdən-əsrə, dövrdəndövrə yerli aborigen tayfa birləşmələri və xalqlarla yanaşı, öz taleyini, öz gələcəyini bu torpaqla bağlayan bir sıra milli azlıqların, azsaylı xalqların və etnik azlıqların da doğma vətəninə çevrilmişdir.

Azərbaycanın çoxmillətli bir ölkəyə çevrilməsinin obyektiv və subyektiv səbəblərinin dərinliklərinə varmadan bir cəhəti xüsusilə vurğulamaq istərdim ki, bu torpağı özünə əbədi məskən seçmiş xalqların əksəriyyəti zaman keçdikcə doğmalaşmış, bəziləri isə yerli xalqlarla qaynayıb-qarışmışlar və bu gün haqlı olaraq bu torpaqda yaşayanların çoxu Azərbaycanı özlərinə doğma və əbədi Vətən hesab edirlər. Bütün bu cəhətlər indi nəinki demoqrafik hesablamalarda, həmçinin Azərbaycan xalqının, Azərbaycan millətinin formalaşmasının məzmununda və tərkib hissəsində də özünü göstərir. Hal-hazırda Azərbaycan Respublikasında ölkənin əsas və çoxluq təşkil edən əhalisi - azərbaycanlılar (Azərbaycan türkləri) ilə yanaşı bir sıra digər millət, xalq və etnik azlıqlar da çiyin-çiyinə yaşayırlar.

Əlbəttə, "millət", "xalq", "azsaylı xalq", "milli azlıq", "etnik azlıq" məfhumları təzə yaranan terminlər deyil və öz məna çalarlığı baxımından da nə dünənin, nə də bu günün reallığı ilə izah edilə bilər. Bu terminlər müxtəlif dövrlərdə ayrı-ayrı tayfaların xalq, ayrı-ayrı xalqların tədricən millət kimi formalaşması prosesi nəticəsində meydana gəlmişdir. Bütün dünya ictimaiyyətinin bu terminlər haqqında aydın və dəqiq təsəvvürləri vardır. Elə bizim respublikada kifayət qədər olmasa da, müəyyən mənada bu məsələyə maraq və onun izahı yeni problem deyil, müxtəlif vaxtlarda az-çox öyrənilib, ayrı-ayrı dövrlərdə ayrı-ayrı müəlliflər tərəfindən araşdırılıb" (Bax: Qəmərşah Cavadov. "Azərbaycanın azsaylı xalqları və milli azlıqları" (Tarix və müasirlik), Bakı, "Elm", 2000. səh.5-6).

*(Davamı səh. 6-da)*

# "Canımız Qarabağ, yazımız Qarabağ"



Biləsuvar rayonu ərazisində salınmış 11 saylı məcburi köçkün qəsəbəsində Azərbaycan Yazarlar Klubu İctimai Birliyinin ”Canımız Qarabağ, yazımız Qarabağ” layihəsi çərçivəsində ziyalılar, gənclər və ictimaiyyət nümayəndələri ilə görüşü keçirildi.

Görüşdə Əli Kərim adına poeziya klubunun sədri, şair İbrahim İlyaslı, Azərbaycanda Atatürk Mərkəzinin baş redaktoru, ”Türk Dünyası” İctimai Birliyinin sədri, şair Dəyanət Osmanlı, ”Ədalət” qəzeti baş redaktorunun müavini, şair-publisist Əbülfət Mədətoğlu və layihənin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin müşaviri, Azərbaycan Yazarlar Klubunun sədri, yazıçı-publisist Elçin Hüseynbəyli iştirak etdilər.

Cəbrayıl Rayon İcra Hakimiyyəti Başçısının müavini Tapdıq Nəsirov qələm sahiblərini və tədbir iştirakçılarını salamlayaraq bildirdi ki, qələm adamlarının bölgəyə səfəri və məcburi köçkünlərlə görüşü çox əlamətdardır və silahla qələmin birliyinə işarədir. Belə görüşlərin müntəzəm keçirilməsi çox vacibdir.Çünki belə görüşlər səfərbəredici gücə malikdir.




Elçin Hüseynbəyli layihənin məqsədi barədə danışarkən bildirib ki, layihə Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı əsasında həyata keçirilir və ordumuza dəstək, Qarabağ uğrunda müqəddəs savaşımıza yazarlar tərəfindən töhfə vermək məqsədi daşıyır.Bu görüş həm də mənim üçün ona görə əlamətdardır ki, köçkün həyatı yaşayan, yurd həsrətli həmyerlilərimlə görüşürəm.İnsanların simasında qələbəmizə böyük inamı görürəm.Bu, həqiqətən, məni sevindirir.

Tədbirdə Əli Kərim adına poeziya klubunun sədri, şair İbrahim İlyaslı, Azərbaycanda Atatürk Mərkəzinin baş redaktörü,” Türk Dünyası” İctimai Birliyinin sədri, şair Dəyanət Osmanlı, ”Ədalət” qəzeti baş redaktorunun müavini, şair-publisist Əbülfət Mədətoğlu, qəsəbələrdə məskunlaşmış şairlərdən Musa Aslanxanlı, Mirzə Mirimli, bu sətirlərin müəllifi, şair Hidayət Səfərli və digər çıxış edənlər torpaqlarımızın tezliklə azad ediləcəyinə və gözlərdə görünən kədərin sevinclə əvəz olunacağına inandıqlarını bildirdilər. Şairlər vətənpərvərlik mövzusunda şeirlərini də oxudular.

Tədbirin sonunda yazarlar öz kitablarını qəsəbə kitabxanasına hədiyyə etdilər və xatirə şəkli çəkdirdilər.

# ”Azərbaycan tarixi aylığı”





Şəhid İ.Tahirovun adını daşıyan Mehdili kənd tam orta məktəbində ”Azərbaycan tarixi aylığı” çərçivəsində silsilə tədbirlər həyata keçirilir. Bilik yarışması - viktorina da belə tədbirlərdəndir.Bir neçə mərhələdən ibarət bilik yarışması öncəsi Cəbrayıl RTŞ-nin metod kabinetinin müdiri Əbülfəz Əhmədov, məktəbin direktoru Akif Allahverdiyev, tarix müəllimi Ehtiram Dadaşlı çıxış edərək yarış iştirakçılarına tariximizi öyrənməyin vacibliyindən danışdılar və viktorinada onlara uğurlar arzuladılar.

Bilik yarışması VII-a, VII-b, VIII, IX sinif şagirdlərinin ”Cəbrayıl”, Qarabağ”, ”Çinar”, ”Xudafərin” komandaları arasında keçirildi.Suallar şagirdlərə video görüntülər şəklində təqdim olundu.Daha hazırlıqlı, həm də çevik uşaqlar fərqləndilər.

Sevindirici hal ondan ibarətdir ki, şagirdlərin cavabları münsiflər heyətini razı salır, tamaşaçıların alqışları ilə qarşılanırdı. Təxminən iki saat davam edən bilik yarışması IX sinif şagirdlərinin ”Xudafərin” komandasının qələbəsi ilə başa çatdı. Bu uğurun qazanılmasında komanda üzvlərindən Elmir Səmədzadə, Rəmziyyə Qurbanova, Rüfət Əhmədzadə, Aliyə Allahverənova, Mətin Cəfərli fərqləndilər.

Tədbirin sonunda Cəbrayıl RTŞ-nin metod kabinetinin müdiri Əbülfəz Əhmədov qalibləri təbrik etdi, onlara uğurlar arzuladı.

Qaliblər Fəxri fərmanlarla təltif olundular.

***Hidayət Səfərli***
***”Xudafərin” qəzeti baş redaktorunun müavini***

# Tədbir keçirildi




Beynəlxalq Mətbuat Mərkəzində şair-publisist Yaqub Məğrurun 60 illik yubiley tədbiri keçirildi. Toplantıda AYB və AJB-nin üzvləri olan şair, yazıçı və jurnalistlər, alimlər, iş adamları, yaxınları iştirak edirdilər. Tədbirin aparıcısı Qəribxan Dağlaroğlu məclisi açaraq sözü yubilyara verdi. Y.Məğrur məclis iştirakçılarını şeirlə salamlayıb bildirdi ki, bu tədbir əslində noyabrın 20-də keçirilməli idi. Ancaq 1991-ci ilin həmin günündə Xocavənd rayonunun Qarakənd kəndi səmasında xain düşmən tərəfindən raketlə vurulmuş helikopterimizin partlaması nəticəsində həlak olmuş şəhidlərimizin ümumxalq hüzn günündə belə bir yubiley tədbiri keçirmək öz milli mənsubluğuna dönük çıxmaq demək olardı. Bu səbəbdən heç vaxt 20 noyabrda ad günü keçirməyib, yubiley tədbirini beş gün geri çəkmişik.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Yaqub Xuduyev ədəbiyyata gəlişindən, keşməkeşli yaradıcılığından və aprel döyüşlərində ordumuzun uğurlarından ilhamlanaraq yazdığı qələm məhsullarının dərc olunduğu və ad günü ərəfəsində nəfis şəkildə çapdan çıxmış ”Vətən naminə” kitabından ətraflı danışdı.

DAMM İctimai Nəzarət Koalisiyasının rəhbəri Rasim Məmmədov, YYSQ - nun sədri, Kitabxana.net portalının rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov şairi təbrik etdilər. Azərbaycan radiosu ”Ədəbiyyat və incəsənət” redaksiyasının rəhbəri Mahəddin Əsgər Y.Məğrurun yubileyi ərəfəsində onların yayımladıqları ”Vaxtınız varsa” ədəbi verilişində qonaq olmağından və şeirlərini dinləməkdən məmnun olduğunu bildirdi, onu təbrik etdi.

AYB-nin məsləhətçisi - şair-publisist Dayandur Sevgin, AYB-nin üzvləri-”Ədəbiyyat qəzeti”nin şöbə müdiri-yazıçı Sərvaz Hüseynoğlu, ”Xəzan” jurnalının baş redaktoru-yazıçı Əli bəy Azəri, ”Sahil” qəzetinin baş redaktoru-yazıçı Həşim Həsənoğlu, AJB-nin üzvləri - ”Həkəri”qəzetinin baş redaktoru, ”Günaz.az” saytının redaktoru-şair Rauf İlyasoğlu, ”Dünya kriminalı” qəzetinin və saytının baş redaktoru, Qarabağ müharibəsi veteranı, ehtiyatda olan zabit Əjdər Təzəxanoğlu, ”Yeni tərəqqi naminə” qəzetinin baş redaktoru, ”Tərəqqi” Tv-nin rəhbəri Aygün Həsənli, ”Təhqiqat” qəzetinin əməkdaşı Həqiqət Sönməz, Əlillər cəmiyyətinin əməkdaşı, ”İşıqlı yol” qəzetinin baş redaktoru Bayram Qorqud və tədqiqatçı-jurnalist Nazim Tapdıqoğlu yubilyarı təbrik edərək yaradıcılıq uğurları arzuladılar.

AYB-nin üzvü, yazıçı Hacı Əlisahib Əroğul çıxışında Y.Məğruru gənc çağlarından tanıdığını, ona bu təxəllüsü xalqın verdiyini və bu adı daim doğrultduğunu vurğulayaraq, daha uca zirvələr fəth etməyi arzuladı.

AYB-nin üzvləri-Əməkdar müəllim, şair, professor Oqtay Rza, şair Oqtay Zəngilanlı, ”İlham çeşməsi” qəzetinin baş redaktoru, şair Hacı Əziz Musa və şair-publisist Nizami Süleyman yubilyara həsr etdikləri şeirləri oxudular.

Respublika ”Qayğı” cəmiyyətinin Abşeron rayon şöbəsinin müdiri Sevda Səfərəliyeva, Cəbrayıl rayon Təhsil Şöbəsinin müdir müavini Aydın Bəyişov, respublika Ailə Sağlamlıq Mərkəzinin həkimi Firudin Məhərrəmov, Qarabağ müharibəsi veteranı, ehtiyatda olan zabit Vaqif Nəsirov, Ellada Əliyeva təbriklərə qoşularaq, yubilyara cansağlığı, uğurlar dilədilər.

”Qafqaz media” İB-nin sədri, şairə Hacıxanım Azadə Taleh rəhbərlik etdiyi təşkilatın qərarı ilə Azərbaycan ədəbiyyatı və mətbuatının inkişafında yorulmaz fəaliyyəti və 60 illik yubileyi münasibəti ilə Y.Məğruru ”Ustad qələm sahibi” diplomu ilə mükafatlandırdı.

Şairin oğlu -karate üzrə Dünya və Avropa çempionu Novruz Xudiyevin təbrikindən sonra söz məktəblilərə verildi. Binəqədi rayonu ərazisində fəaliyyət göstərən Kəlbəcər rayon 6 saylı tam orta məktəbinin 7-ci və 5-ci sinif şagirdləri Zahidə və Nicat Məmmədovlar, Yasamal rayonundakı 52 saylı tam orta məktəbin 5-ci sinif şagirdi Aytac Xudiyeva və 3-cü sinif şagirdi, poeziya aləmində ilk addımlarını atmaqda olan Nihat Bayramoğlu şairin şeirlərindən əzbər söylədilər.

Axırda Yaqub Məğrur seçmə şeirlərindən nümunələr söyləyib, yubiley iştirakçılarına minnətdarlığını bildirdi.

***Şakir ALBALIYEV***

*Veteranlarımız*

# Bir ömürdə iki tale



Haqqında danışacağım şəxsin kimliyi ilə rəsmi tanış olaq:

Hüseynov Mehman Həsən oğlu 1956-cı il noyabr ayının 12-də Cəbrayıl rayonunun Yarəhmədli kəndində anadan olmuşdur.Orta məktəbi bitirib Bakı Elektrik Rabitə Texnikumuna daxil olmuş və oranı bitirmişdir.1975/1977-ci illərdə keçmiş sovet ordusunun tərkibində ”Cənub Birləşmə Ordusunda” Macarıstan Respubliikasında artilleriya divizionunda hərbi xidmətdə olmuşdur.Qarabağ uğrunda gedən döyüşlər başlarkən əvvəlcə könüllü olaraq,daha sonra isə komissarlığın çağırışına əsasən qanlı döyüş bölgələrində düşmənə qarşı vuruşmuşdur.Qarabağ uğrunda gedən döyüşlərdə apardığı gündəlik qeydlər əsasında yazılmış iki kitabın müəllifidir. Dəfələrlə Fəxri Fərmanlarla təltif olunub Döyüşlərdə göstərdiyi uğurlara görə 1994-cü ildə ”Şah İsmayıl Xətai” fəxri fərmanı ilə, 2016-ci ildə ”Qızıl Qələm”lə mükafatlandırılmışdır.







Bu yığcam tərcümeyi-haldan onun sahibinin keşməkeşli, dolambaclı bir ömür yolu qət etdiyi aydın görünür. Belə ki,mən Mehmanın özkeçmişində (həyat tarixçəsində-tərcümeyi-halında) iki hissəyə bölünməklə biri digərinə ziddiyyətli görünən iki əsas mərhələni ayırd edirəm. 1-ci tərəf onun texnikum təhsilinə yiyələndiyi dövrlə yekunlaşır. Daha sonra onun hərbi mükəlləfiyyətli gənc kimi öz əsgəri borcunu yerinə yetirməsi gözlərimiz qarşısında canlanır və bu da bizə təbii təsir bağışlayır. Amma Mehman Hüseynovun ömrünün 2-ci mərhələsini düşündükdə bu qənaətə gəlirsən ki, onun artilleriya ordusunda xidmət keçməsi elə həm də əslində illər sonrası tale yolundakı əsaslı dönüşün təməli imiş. Belə ki, M.H. Hüseynovun həyatının birinci dönümü dinc dövrdəki yaşayış illərimizlə xarakterizə olunur ki, bu mərhələ adi hesab olunandır. Yəni hamı kimi yaşayıb ömür keçirmək, şad-şalayın bir dövran sürmək onun da bir insan kimi haqqı idi... Amma müharibə deyilən dəhşətli kabus çoxları kimi Mehman Həsən oğlu Hüseynovun da taleyindən təsirsiz ötüşmədi. Bəlkə də yatsaydı yuxusuna belə gəlməyəcəyi, fikirləşsəydi-düşünsəydi ağlına belə gəlməyəcəyi bir tale ilə uğraşdı. Hələ bığ yeri təzəcə tərlədiyi gənclik illərində Macarıstanda keçirdiyi hərbi xidməti vaxtında yiyələndiyi topçuluq peşəsinin sirləri vətənimizin ağır günlərində vətən məhəbbətilə döyünən qəlbinin karına gəldi. Bir topçu zabit kimi milli ordumuzun sıralarında vətənpərvərlik əzmi nümayiş etdirdi. Sülh dövründəki yaşadığı həyatını müharibə dövründə hərbçi zabit həyatı ilə əvəzlədi və beləcə onun həyatında biri digəri ilə uyuşmayan ikinci bir tale yolu başlandı. Döyüşçü Mehman, zabit Mehman, leytenant Mehman, topçu Mehman. İllər öncəsi xəyalına gətirərdimi bunları? Hələ bunlar azmış kimi təsəvvürünə gətirərdimi ki, hərbçi kimi istefaya gedəndən sonra da əlinə qələm alıb yazıçılıq edəcək, ”Döyüşdən sonra döyüş” və ”Qanlı döyüşlərin canlı şahidləri” adlı xatirə-memuar tipli kitablarını qələmə alacaq...

Bəli, müharibə Mehmanın həyatını, taleyini dəyişdirdi, onu hərbçi elədi, onu yazıçı elədi... bir ömürdə iki tale yaşatdı ona... amma mən onun bu yazıçılığından da bir çoxlarının dərs götürməsini istəyərdim. Nəyə görə? Mən bizim xalqımızın təfəkkür dünyasının aynası olan şifahi söz yaradıcılığına binaən həmişə çox müdrik bir xalq olduğumuzu demişəm. Xalqımızın hər ifadəsində, kəlamında bir hikmət çaları yatır. Hətta bəzən yarızarafat tərzdə birinə istehza ilə deyilən ”adam dilində yaz (ya da danış)” ifadəsinin də alt qatından çox dərin mətləblər boy göstərir. Bu ifadəni ən çox ibarəbazlıq göstərənlərə aid edirlər. Yəni özünü təkəbbürlə alim, ya şair hesab edən kimsə haqqında işlənir bu fikir. Niyə? Kütlə üçün anlaşılmayan qəliz ifadələri ilə ”alimlik” nümayiş etdirmək istəyənlərin qurduqları-yazdıqları-danışdıqları cümlələrdən bir şey başa düşməyən vətən oğlu çar-naçar qalıb, ”adam dilində danış (yaz)” demək məcburiyyətində olur. Yaxud da poeziyadan xəbəri olmayan birisi şairlik iddiasına düşüb boş-mənasız cızmaqaralar edəndə, oxunan misralar quru söz yığını olub, adamı diltəng eləyəndə, oxucunun-dinləyicinin ürəyindən belə ədabazdan yarıciddi-yarızarafat bir formada ”adam dilində yazmaq-danışmaq” tələbi irəli sürülür. Yəni bu tələbin- bu istəyin cavabı-açması odur ki, özün danışdığın-özün başa düşdüyün bir dildə danış, yaz görək nə demək istəyirsən. Başqa sözlə, ey özünü alimciyəz, şairciyəz hesab edən kimsə, özünün başa düşmədiyin bir dillə (yəni sənin özünün özün ola bilmədiyin bir dillə, özünün olmayan yad bir düşüncə,təfəkkür tərzi ilə) danışıb bizi-qarşındakı müsahibini də bezdirmə, özünü də ucuzlaşdırıb gözdən-nəzərdən salma... ”adam dilində” -ümumi kütlənin danışıb-başa düşdüyü dildə fikirlərini yazıb-çatdır, başa düşülsün... Axı alimsənsə, ağzından dürr tökülməli, şairsənsə sözlərindən-misralarından incilər süzülməlidir. Belə olmayan halda, özünü də, qarşındakını da yorucu sözlərlə niyə zorlayırsan?...

Bunları deməkdə sözümün canı odur ki, ”dərd-müharibə məni şair elədi” deyən bəzi üzdəniraq əllərində qələm tutub cızmaqara edənlərdən fərqli olaraq, Mehman Hüseynov yersiz ”şairlik” iddiasına düşmədi, boş mənasız sətirlər yazıb qaralamaqla özünə zorən ”şair” dedirtmədi. Özü danışdığı sadə bir dildə-adam dilində müharibədə görüb müşahidə elədiklərini əvvəlcə bir kitaba düzdü, gördü yox, bu gördükləri bir kitablıq deyil, bir kitaba sığmaz, ikinci bir kitabında da müharibədə yaşadıqlarının və həyatda üzləşdikləri hadisələrin ardını-davamını gətirdi. Nəticədə isə müəllif olaraq canlı müharibə iştirakçısı kimi bu günkü və özündən sonra gələcək nəsillərə sənədli-sübutlu tarixi yazılarını ərməğan eləmiş oldu.

Və bir də elə bilməyin ki, mən təkcə burada bu yazımla nə demək istədiklərimi ağ kağızın üzərinə yazmaqla ürəyimi boşaldıram. Dəfələrlə özlərinin ”şairlik” iddiası ilə əlinə qələm alanların üzlərinə demişəm ki, ”adam dilində yazın”. Sonra da qayıdıb izah eləmişəm yuxarıda dediklərim kimi ki, əgər nəsə gördüklərinizi yazıya almaq istəyirsinizsə, publisistik tərzdə yazın, hamı oxusun, başa düşsün, nəsə də ciddi bir şey götürsün, yoxsa ki, şeir deyilən şey-şairlik sizlik deyil. Sözümü götürən də olub, götürməyən də. İndi heç olmasa, mənim bu sözlərimi götürmək istəməyənlər, ya götürə bilməyənlər barı onda Mehman Hüseynovun əməlindən nəticə çıxartsınlar. Mehman qardaşımız kimi həm gözəl insan, əməlisaleh adam olmağı bacarsınlar, həm də ki, elə adam dilində yazsınlar-nəsrin geniş imkanlarından istifadə etməklə oçerkvari həyati yazılara imza atsınlar.

Mənə elə gəlir ki, bu günlərdə 60 yaşını tamam eləməklə həm də bir ağsaqqallıq mərtəbəsinə çatan Mehman Hüseynov həmçinin bu mübarək yaş dönəmi ilə də bir nümunəvi örnəkdir. Yaş da adama gərək halal olsun. Müdriklik mərhələlərindən olan 60 yaşınız da sizə halaldır, Mehman müəllim. Siz bir ömürdə iki tale qazandınız, onu da halallıqla qazandınız. Halallıqla gün keçirib, ömür sürənləri Tanrı qorusun!

***Şakir ƏLİFOĞLU***

“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN

SON SƏHİFƏ № 13 - 14 (6775-6776) 29 dekabr 2016-cı il





# Şərəfli ömür yaşadı

Məmmədov Vahid Bahadur oğlu 1958-ci ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Uşaqlığı, gəncliyi yaşadıqları Əmircan qəsəbəsində keçib. Vahidin qaynar uşaqlıq illərinin bir hissəsi də kənd həyatı ilə bağlı idi. Belə ki, isti yay günlərini, yay tətilini o ata yurdu olan Cəbrayıl rayonunun dağlar qoynunda yerləşən Dağtumas kəndində keçirərdi.Sarışın, suyuşirin bu istiqanlı gözəgəlimli oğlan tətildən geri dönəndə bir şələ xəbərlə, təəssuratla qayıdırdı. Məhlə uşaqları ilə Vahid kənd həyatının mənzərələrini, təəssüratlarını o dərəcədə incəliklə, səmimiyyətlə bölüşürdü ki, tay- tuşları onun gəlişini səbirsizliklə gözləyirdilər. Vahidi ən çox valeh edən, qəlbində dərin izlər buraxan bu kəndin füsunkar təbiəti, zümzüməli bulaqları, əzəmətli dağ silsilələri, meşə mənzərələri idi. Tumas dağı ilə Tumasın cənnət bağı sanki bir tandem yaradır, nəhəng Xançınarın əzəməti, üç gözlü tağbənd bulağı bu gözəlliyə əlavə bir rəng qatırdı. Tumas bağının nəhəng çinar, qoz, qovaq, söyüd, dağdağan ağacları, onlara sarmaşan qızıl üzüm tənəkləri, sıralanıb asılan kəhrəba rəngli üzüm salxımları, arxların kənarında bitən boynubükük tər bənövşələr - bütün bunlar Vahidi heyran edir, onu sanki nağıllar dünyasına səsləyirdi. Şəhər uşaqları kimi doğma kəndin uşaqları da Vahidin gəlişinə sevinir, ona diqqət göstərirdilər.

Uşaqlıqdan Vahidin bir natiqlik qabiliyyəti var idi. Onun şirin-şirin danışığında bir yapışqanlıq, məhrəmlik, ülviyyət sezilirdi. Onun şəhər həyatından, Xəzərin dalğalarından, Ləpədöyənindən, park-bulvarından danışdıqlarına kənd uşaqları heyranlıqla qulaq asar, böyüyüb şəhərə gedəcəkləri günü səbirsizliklə gözləyərdilər. Elə ki, ağaclardakı qozların qabığı aralanıb yerə tökülər, kənd uşaqları cevizləri, onun ləpələrini Vahidə pay verməkdə yarışa girərdilər. Vahid də yediyini yeyər, yemədiyini də ciblərinə doldurub Məryəm nənəsinə, Güllü nənəsinə, anası Suruşa pay gətirər, bundan xüsusi ləzzət alardı.

Bax beləcə nağıllar aləminə oxşar təzadlı, mənalı, qaynar uşaqlığı keçdi Vahidin.

Orta məktəbi əla qiymətlərlə bitirən Vahid seçim qarşısında qaldı; müəllim, yoxsa hüquqşünas olmaq? Şərəfli müəllimlik peşəsi də sanki onun boyuna biçilmişdi. Lakin o ikincini seçdi. Sözsüz ki, işlədiyi hüquq-mühafizə, prokurorluq orqanlarında o öz işini bilən, öz nümunəvi, prinsipial işləri ilə çoxlarına nümunə olan bir mütəxəssis oldu. Onun prokurorluq orqanlarında uzun illər işlədiyi dövrlərdə ən mürəkkəb ağırçəkili, münaqişəli istintaq işlərini məhz bu təcrübəli mütəxəssisə həvalə edirdilər. Vahidin əmək fəaliyyətinə başladığı illərə nəzər saldıqda maraqlı, xronoloji bir mənzərə yaranır.

Bakı Dövlət Universitetini 1985- ci ildə uğurla başa vuran Vahid Qaradağ rayon prokurorunun müstəntiqi kimi fəaliyyətə başlayır, az sonra Suraxanı rayon prokurorluğunun müstəntiqi kimi işini davam etdirir. Çox keçmir qeyri- adi istedadına, uğurlu işlərinə görə respublikanın baş prokurorluğuna dəvət olunur və mühüm işlər üzrə baş müstəntiq kimi məsul bir sahəyə rəhbərlik edir. Bu illərdə - 1988-ci il Sumqayıt hadisələri, 20 Yanvar qırğınları kimi mürəkkəb istintaq işlərinə cəlb olunur, bu ağır ittiham işlərinin aparılmasında fəaliyyət göstərir. 1988-ci il Sumqayıt hadisələri, 20 Yanvar hadisələrinin ağır yorucu istintaq işlərindən sonra Vahidin Ağstafaya, sonra məmləkətin 2-ci böyük şəhəri olan Gəncəyə və nəhayət Tovuz rayon prokurorluğuna ezam olunması onu deməyə əsas verir ki, o elə böyük şairimiz S.Vurğunun: ”Müsəlləh əsgərəm mən də bu gündən” şeirində olduğu kimi, yenicə müstəqillik qazanan gənc respublikanın, dövlətçiliyinin möhkəmlənməsində sanki bir müsəlləh əsgərə çevrilir, ona aid olan hadisələrin həllinə səfərbər olunur, öz iradəsini, inamını ortaya qoyur.

Oğulları atalar tərbiyə edir ifadəsi Vahidin ömür yoluna da bir çıraq olur. Atası Məmmədov Bahadur Əhməd oğlu Azərbaycan reallığında, yaxın keçmişində tanınmış bir şəxs idi. Böyük Vətən müharibəsindən sonra ordudan tərxis olunan gənc Bahadur Baki Dövlət Universitetinin Tarix fakültəsində təhsilini qiyabi davam etdirərək, eyni zamanda komsomol və partiya orqanlarında bir gənc kadr kimi fəaliyyət göstərir, sonra Orconikidze adına neft mədənlərində partiya təşkilat katibi kimi uzun illər çalışır. Bu nüfuzlu prinsipial insanı neft mədənlərinin fəhlələri ”fəhlə atası” tituluna qeyri- rəsmi olaraq layiq görmüşdülər. Bahadur müəllim övladlarını da özü kimi tərbiyə etmiş, təmiz namuslu bir vətəndaş kimi görmək istəmişdi. Əmi qızısı Suruş xanımla yaşadığı illərdə kimlər qalıb, rahatlıq tapıb, pərvəriş tapmamışdılar bu ata evində, demək olar ki, bütün Məmmədovlar tayfasının üzvləri. ”Kimlər gəldi kimlər getdi, bü dünyadan, bu dünyadan” sözləri bu mənada çox yerinə düşür. Bahadur müəllim bu yaşadığı evin həyətini bir cənnət bağına döndərmişdi.

Nailə xanımın bu ocağa gəlin gəlməsi bu evə,bu ocağa sanki yeni bir ruh, yeni bir ab-hava gətirmişdi. Ata, ana, balaca qardaş Oqtay, iki qardaşın bir bacısı Aidə bu xanıma elə isinişdilər ki, sanki özlərinə ikinci bir xanım- xatın bacı tapmışdılar. Nailə xanım bu ailənin bir doğmasına, bir ləyaqət simvoluna çevrildi. İndi Vahidin bu qəfil yoxluğunu Nailə xanım və doğmaları sınıra bilmir. İndi onun məsuliyyət yükü daha ağırdır, indi o daha təmkinli olmağa məhkumdur. Övladları Fəridənin, Nərgizin arzularının yarımçıq qalmamasına, həm də Vahidin bitib- tükənməyən ülvi arzularının çin olmasına çalışmalıdır. Bu, bir arzu-istəkdir, bir də Vahidin nə vaxtlarsa mənim sualıma: Vahid, sən bu illəri cəbhə xəttində bu ağır istintaq işlərini necə aparmısan, - belə cavab verməsi:

- Nazir müəllim, mən bu ağır sınaq illərini iki qız övladım və Nailə xanımla birgə biri- birimizə sığınıb , baş- başa verib yola verdik kəlməsini gec də olsa indi anladım. Və bir də onu anladım ki, Vahid adaşı olan Vahid Tumaslının bu misralarını niyə tez- tez xatırlayırdı:

***Xatirələr düzüm-düzüm,***
***Çözələndi qaldı közüm,***
***Heç bilmirəm məndə dözüm***
***Qayadımı, qayadımı.***

Vahidin ömrünün son illərində, son anlarında həmişə ona mənəvi dayaq olan qohumu - dostu, sirdaşı İsmayıl müəllimin, Vahidi həmişə özünə ideal sayan Rəşadın, uzun illər bir yerdə işlədiyi Vahidə bir qardaş sevgisi bəsləyən Tariyel Qurbanlının gözlərindəki hüznlü kədəri sezməmək mümkün deyildi. Uzaq Çində səfərdə olan kürəkəni, dostu-sirdaşı Sabir müəllim isə bu acı xəbərin ağırlığını öz içində özü çəkirdi.

Bizlər - Vahidin doğmaları son mənzilə yola saldığımız Vahidin heykəlləşmiş daşlaşmış məzarı ilə üz- üzə qalıb, qəbri üstə tər qərənfillər düzüb, ruhunun behiştlik olmasına dualar oxuyuruq... Allah sənə rəhmət eləsin, Vahid!..

***Nazir Çərkəzoğlu,***
***AJB-nin üzvü***

**İtmişdir**

1974-cü il təvəllüdlü Bayramov Adil Qədir oğluna Cəbrayıl Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

## Cəbrayıl rayon prokurorunun 2017-ci ilin 1-ci rübündə yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 7 saylı qəsəbə | 19.01.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 3 saylı qəsəbə | 27.01.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 8 saylı qəsəbə | 10.02.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 9 saylı qəsəbə | 24.02.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 5. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 10 saylı qəsəbə | 03.03.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 6. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 11 saylı qəsəbə. | 17.03.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**

Cəbrayıl rayon təhsil şöbəsinin aparıcı məsləhətçisi Ağabala Əliyevə, anası
**Niyar Camal qızının**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**

**Misirxanov Səyyaf Lətif oğlu**
**Hacıyev Məhəmməd İsmayıl oğlu**
**Məmmədov Vahid Bahadur oğlu**
**Şabəddinov Qüdrət Ziyad oğlu**
**Mahmudov Məhəmmədbağı Həsən oğlu**
**Hüseynov Fazil Qərib oğlu**
**Əsədova Sənəm Hənifə qızı**
**Rəfiyeva Sədaqət Məhəmməd qızı**
**Cəfərov Məhəmməd Məmməd oğlu**
**Əliaslanov Əli Raqub oğlu**
**Sadıqova Mədinə Murtuza qızı**
**Hüseynov Hüseyn Mürsəl oğlu**
**Əmiraslanov Malikəjdər Nuruş oğlu**
**Yusifov Azadxan Qardaşxan oğlu**
**Səfərov Mahir Cümşüd oğlu**
**Hüsüyev Tahir Möhübbət oğlu**
**İmamverdiyeva Aytac Əyyub qızı**
**Əliyeva Şura Astanalı qızı**
**Qaraşova Səfurə Nəriman qızı**
**Mirzəyev Ziyadxan Buludxan oğlu**
**Məhərrəmova Raya İmamqulu oğlu**
**Təhməzov Bəhrəm Bəhlul oğlu**
**Əhmədova Elmira Oruc qızı**
**Sadıqov Əliağa Baloğlan oğlu**
**Xudiyeva Güllər Savalan qızı**
**Talıbova Gülhəyat Xəlil qızı**
**Şirinov İsa Cəbrayıl oğlu**
**Həsənova Məstan Cəmil qızı**
**Quliyeva Sumaya Mehdi qızı**
**Süleymanov Bəkir Misir oğlu**
**Şahməmmədov Məhəmməd İsa oğlu**
**Səfərova Salatın Hasanqulu qızı**
**Hüseynova Minara Fərhad qızı**
**Həmidov Əhməd Xasay oğlu**
**Əhmədov Aydın Nayfulla oğlu**
**Hüseynova Fatma Fərman qızı**
**Şükürov Qurban Əhməd oğlu**
**Rüstəmova Fatma Nəbi qızı**
**Əliyeva Roza Bəşir qızı**
**Qasımova Şahnisə Rza qızı**
**Talıbov Bayram Kamran oğlu**
**Quliyev Kamal Kamran oğlu**
**Quliyeva Zərxanım Pirqulu qızı**
**Kəlbalıyeva Günel Hidayət qızı**
**Məmmədova Tərgül Əliş qızı**
**Quliyev Ramazan Məmmədhəsən oğlu**
**Həşimova Ballı Həbibullah qızı**
**İbrahimov Əkbər İbadxan oğlu**
**Əliyeva Münəvvər İsa qızı**
**Məmmədov Məhəmmədəli Əziz oğlu**
**Məmmədov Akif Famil oğlunun**

**vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1037, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Açıq Səma” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
Sifariş №: **3747**
**Tiraj: 1100**